RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 207 (9374) 24 SENTYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident hər şeyi vaxtında və məharətlə edir



## İlham Əliyev 200 illik erməni avantürasını məhv etdi

"İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi".

Bəli, 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, illərdir sürdürülən sərsəm "Böyük Ermənistan" planları "dəmir yumruğ"un qətiyyətli zərbələri ilə alt-üst edildi.

Cari il sentyabrın 19-20-də Qarabağda uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi.

Qanunsuz xunta rejiminin "bayraq" adlandırdığı əski parçası isə xuntaçıların qoltuğuna verildi ki, haradan gəliblərsə, götürüb oraya getsinlər. Çünki Qarabağ Azərbaycan ərazisidir və burada kriminal rejim at oynada bilməz.

10 noyabr üçtərəfli Bəyanatında Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarması ilə bağlıdır. Lakin 44 günlük Vətən müharibəsindən ötən müddət ərzində Bakının da dəfələrlə bu məsələ ilə bağlı narazılığını dilə gətirməsinə baxmayaraq, Ermənistan bəzi xarici havadarlarının dəstəyi ilə bu öhdəliyini yerinə yetirməkdən yayınırdı.

Ermənistan "dəmir yumruğ"un zərbəsini "unutduqca", Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını da "yadından çıxarır", ölkəmizə qarşı siyasi, hərbi və digər təxribatlarını intensivləşdirirdi.

Hətta sarsaq ideologiyalı erməni lobbisinə, bəzi riyakar xarici ölkə və təşkilatlara güvənən İrəvan İkinci Qarabağ müharibəsi başa çatandan sonra, cari il sentyabrın 9-da Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərmək kimi axmaq cürət nümayiş etdirmişdi.

→ 4

# Prezident İlham Əliyevin tapşırığı ilə...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında İşçi qrup yaradılıb.**

İşçi qrup Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı çərçivəsində fəaliyyət göstərir.

İşçi qrupun tərkibinə İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar daxildir.

2023-cü il sentyabrın 20-dən etibarən İşçi qrup tərəfindən aşağıdakı tədbirlər həyata keçirilib:

- 2023-cü il sentyabrın 22-də Fövqəladə Hallar Nazirliyi tərəfindən erməni sakinləri üçün 40 tonluq ərzaq məhsulları və gigiyenik vasitələrdən ibarət 2 yük avtomobili və 2 çörək dolu avtomobil fəaliyyətdə olan Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb;
- Erməni sakinlərinin ilkin tibbi yardım və qida ilə təmin olunması məqsədilə Fövqəladə Hallar Nazirliyi tərəfindən Ağdam, Füzuli və Kəlbəcərdə 1000 nəfərlik çadır düşərgələri qurulub. Ərazidəki polis qüvvələri, hərbi heyət və mülki işçilər tərəfindən erməni sakinlərə yerlərdə ilkin tibbi yardım və müvafiq dəstək göstərilir;
- Sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə erməni sakinlərin nümayəndələrinin xahişinə uyğun olaraq, ilk növbədə bağçalar, təcili tibbi yardım və yanğınsöndürmə xidmətləri olmaqla yanacaq-sürtkü materiallarının göndərilməsi təmin ediləcək;
- Rusiya sülhməramlı qüvvələri kontingentinin şəxsi heyətinin istifadəsi, eləcə də sülhməramlılar vasitəsilə mülki əhaliyə çatdırılması üçün Laçın-Xankəndi yolundan ərzaq və gündəlik tələbat mallarının keçidi təmin olunur;
- Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən Ağdam-Əsgəran-Xankəndi və Laçın-Xankəndi yolu ilə ərzaq, dərman preparatları və uşaq qidasından ibarət yüklərin aparılmasına, təşkilatın Bakı və Cenevrə ofislərindən Xankəndidə olan alt ofisinə əlavə heyətin ezam olunmasına şərait yaradılır;
- BQXK müraciəti əsasında tibbi yardıma ehtiyacı olan şəxslərin Ermənistana təxliyəsi üçün zəruri imkanlar yaradılır.

**Azərbaycan Respublikası
Prezidentinin Administrasiyası**

# Hazırda Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üçün daha yaxşı imkanlar yaranıb

## Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

Toivo Klaar dövlətimizin başçısının Azərbaycan xalqına 20 sentyabr tarixli müraciəti, həmin müraciətdə Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə əlaqədar səsləndirdiyi fikirləri və Yevlaxda Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə keçirilmiş görüşü müsbət qiymətləndirdiyini bildirdi.

Dövlətimizin başçısı öz növbəsində Azərbaycan xalqına 20 sentyabr tarixli müraciətində Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə bağlı söylədiyi fikirlərə toxundu, onların bütün hüquqlarının - təhsil, mədəniyyət, din, bələdiyyə, seçki və digər hüquqlarının təmin olunacağını bildirdi.

Prezident İlham Əliyev Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə İşçi qrupun yaradıldığını, bu İşçi qrupun əsas funksiyalarının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli olduğunu, Yevlaxda keçirilmiş görüşdə reinteqrasiya məsələləri üzrə Azərbaycanın planlarının təqdim edildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı həmçinin yerlərdə artıq silah və sursatın yığılması prosesinə başlanıldığını, orada çox böyük həcmdə silah-sursat anbarlarının müəyyən edildiyini bildirdi.

Prezident İlham Əliyev hazırda Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üçün regionda daha yaxşı imkanların yarandığını qeyd etdi.

Görüşdə eyni zamanda dövlətimizin həyata keçirdiyi humanitar layihələr haqqında məlumat verildi, Beynəlxalq Qırmızı Xaç Komitəsinin təqdim etdiyi sorğulara Azərbaycan tərəfindən müsbət cavab verildiyi və dəstək göstərildiyi vurğulandı.

# Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin xahişi nəzərə alınıb

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin, ilk növbədə bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi xahişinə uyğun olaraq, sentyabrın 23-də Bərdə-Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 24 ton benzin, 40 ton dizel yola salınıb.

**Azərbaycan Respublikası
Prezidentinin Administrasiyası**

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı - Krallıq elan edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ortaq tarixi-mədəni köklər, qardaşlıq, islam həmrəyliyi kimi möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərə xüsusi əhəmiyyət veririk. Yüksəksəviyyəli qarşılıqlı səfərlər, müxtəlif sahələri əhatə edən ikitərəfli və çoxtərəfli müstəvidə faydalı əməkdaşlığımız, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz qardaş ölkələrimiz arasında çoxşaxəli əlaqələri səciyyələndirən başlıca amillərdəndir. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında tərəfdaşlığın inkişafında və möhkəmlənməsində Sizin böyük xidmətləriniz vardır və biz bunu yüksək qiymətləndiririk.

Siyasi əlaqələrimizin hazırkı səviyyəsi və fəal dialoqumuz bütün sahələrdə, xüsusilə də energetika və investisiya qoyuluşu sahələrində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə qarşılıqlı fəaliyyətimizin daha da genişləndirilməsi üçün yaxşı zəmin yaradır. Alternativ və bərpaolunan enerji sahəsində Səudiyyə Ərəbistanının aparıcı "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda külək-elektrik stansiyasının inşası ilə bağlı həyata keçirdiyi layihəni əməkdaşlığımızın əhəmiyyətli nümunəsi kimi dəyərləndirirəm.

Biz Səudiyyə Ərəbistanına Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyinə görə minnətdarıq.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı ənənəvi dostluq münasibətləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2023-cü il*

# İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Ciorcio Napolitanonun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Ciorcio Napolitanonun Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi böyük töhfəni yüksək qiymətləndirir, onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, mərhumun ailəsinə və bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2023-cü il*

# Separatçıların bütün planları darmadağın edildi



## Onlar silah-sursatlarını təhvil verirlər

Müharibənin birdəfəlik bitməsi, silahların susdurularaq ərazilərimizdə sülhün bərqərar olması bütün vətəndaşların, o cümlədən illərdir separatçıların əsiri olmuş Qarabağda yaşayan erməniəsilli vətəndaşlarımızın da ürəyincədir. Bundan sonra Azərbaycan dövləti onların hüquqlarını təmin edib azad yaşamaları üçün bütün şəraiti yaradacaq. Azərbaycan azad cəmiyyətdir, çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Dövlət başçısının dediyi kimi, bu, bizim böyük sərvətimizdir.

→ 5

## T.S.Süleymanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Tahir Süleyman oğlu Süleymanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2023-cü il*

# Nazirlər Kabinetinin geniş iclası keçirilib

## İclasda 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri müzakirə olunub

**Sentyabrın 23-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunmuş Nazirlər Kabinetinin geniş iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclası giriş sözü ilə açan Baş nazir Ə.Əsədov Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq ordumuz tərəfindən bir neçə gün əvvəl həyata keçirilən uğurlu lokal xarakterli antiterror tədbirləri barədə danışıb. Vurğulanıb ki, şanlı Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri cəmi bir gün ərzində yerinə yetirib.

Baş nazir antiterror tədbirləri zamanı şəhid olmuş əsgər və zabitlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

2023-cü ilin Azərbaycan xalqı üçün xüsusilə əlamətdar olduğu bildirilib. "Bu il biz müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli siyasi və dövlət xadimi Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü qeyd edirik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ili "Heydər Əliyev İli" elan edib və Ulu Öndərin yubileyi ilə bağlı dövlət səviyyəsində silsilə tədbirlər həyata keçirilir", - deyə Ə.Əsədov əlavə edib.

Eyni zamanda vurğulanıb ki, 2023-cü il həm də Prezident İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ildönümü ilə əlamətdardır.

Ölkəmizin bütün sahələrdə sürətli inkişafı, insanların rifah halının yaxşılaşması, Azərbaycanın beynəlxalq arenadakı mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmlənməsi dövlətimizin başçısının prezidentlik dövrünün uğurlu nəticələri kimi dəyərləndirilib.

Vurğulanıb ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası bu möhtəşəm prezidentlik dövrünün zirvəsində dayanır.

Ölkənin iqtisadi inkişaf göstəriciləri barədə məlumat verən Ə.Əsədov bildirib ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6 faiz, qeyri-neft sənayesində isə 6 faiz artım qeydə alınıb.

Hazırda ölkənin maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb, strateji valyuta rezervləri 67 milyard ABŞ dollarına çatmış və ilin əvvəlindən 14,5 faiz artıb.

2023-cü ilin ötən dövründə xarici ticarət balansının əhəmiyyətli həcmdə müsbət saldosunun yaranması, xarici borcun azalması və büdcə gəlirlərinin yüksək icrası əldə olunmuş çox müsbət nəticələr kimi dəyərləndirilib.

Bildirilib ki, bütün bunların nəticəsində 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılıb və büdcə gəlirləri 3,1 milyard manat və ya 10,1 faiz, büdcə xərcləri isə 3,3 milyard manat və ya 9,8 faiz artıb.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatının yaradıldığı diqqətə çatdırılıb.

Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasətinin müəyyən edilməsi ilə bağlı əsas çağırış və hədəflər barədə məlumat verilib.

Bu xüsusda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasının, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidən qurulması, həmçinin Böyük qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsinin, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinin, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsinin, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsinin, ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasətinin aparılmasınının, makroiqtisadi və büdcə dayanıqlığının təmin edilməsinin önəmi vurğulanıb.

Diqqətə çatdırılıb ki, dövlət başçısının hökumət qarşısında qoyduğu başlıca tapşırıqlardan biri də bu ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəsinə nail olunmasıdır.

Bu məqsədlə Nazirlər Kabinetinin 2023-cü il 15 iyul tarixli sərəncamı ilə "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılmış İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülməkdədir.

Vurğulanıb ki, inflyasiyanın makroiqtisadi və maliyyə sabitliyi üçün xələl gətirməyən həddə qorunması məqsədilə müvafiq tədbirlərin görülməsi davam etdiriləcək. Məhz bu baxımdan ortamüddətli dövrdə də hökumət qarşısında əsas çağırışlardan birinin makroiqtisadi sabitliyin və büdcə dayanıqlığının təmin edilməsinin olduğu bildirilib.

İclasda maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri haqqında, iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 2024-cü il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri haqqında, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədovun "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı qarşıda duran məsələlər haqqında məruzələri dinlənilib.

Daha sonra gündəlikdə duran məsələlərə dair müzakirələr aparılıb.

İclasa yekun vuran Baş nazir hökumət qarşısında duran əsas vəzifələr barədə məlumat verib.

Ölkənin hərbi potensialının və dövlət təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, Böyük qayıdışın təmin edilməsi, maliyyə sektorunda nizam-intizamın gücləndirilməsi, vergi və gömrük sahəsində islahatların, daxili bazarda sağlam rəqabət mühitinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, həmçinin qarşıda duran digər prioritet layihələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 335 **QƏRAR** Bakı şəhəri, 22 sentyabr 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561; 2012, № 12, maddə 1345; 2014, № 4, maddə 451; 2016, № 12, maddə 2239; 2017, № 4, maddə 665, № 12 (II kitab), maddə 2534; 2018, № 11, maddə 2431; 2020, № 3, maddə 341, № 5, maddə 650, № 12 (V kitab), maddə 1605; 2021, № 2, maddə 205, № 6 (IV kitab), maddə 664;2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin birinci abzasına aşağıdakı məzmunda beşinci-səkkizinci cümlələr əlavə edilsin:

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Heydər Əliyev adına Hərbi İnstituta qəbul olunduqdan sonra əsas təhsil proqramlarının icrasına başlamazdan əvvəl bütün təhsilalanlara, yaxud komandanlığın qərarı ilə təhsilalanların bir qisminə xarici dillərin dərindən öyrədilməsi və zəruri olan digər fənlərin əsaslarının tədrisi məqsədilə Azərbaycan Respublikası müdafiə nazirinin qərarı ilə 1 (bir) tədris ili müddətində hazırlıq kursu təşkil edilir. Hazırlıq kursunun proqramını Azərbaycan Respublikasının müdafiə naziri təsdiq edir. Bilik və bacarıqların qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Kursun proqramını bu və ya digər səbəblərdən yerinə yetirməyən və ya müvəffəqiyyət qazanmayan təhsilalan xüsusi təyinatlı ali təhsil müəssisəsindən xaric edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 336 **QƏRAR** Bakı şəhəri, 22 sentyabr 2023-cü il

### "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının 6.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980, № 10, maddə 1301; 2021, № 3, maddə 268, № 6 (IV kitab), maddə 689, № 9, maddə 1062; 2022, № 3, maddə 253, № 7, maddə 812; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 250 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı" aşağıdakı redaksiyada verilsin:

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların SİYAHISI**

| Sıra №-si | Qurumların adı |
|---|---|
| | **Elmi müəssisələr** |
| 1. | Fizika İnstitutu |
| 2. | Riyaziyyat və Mexanika İnstitutu |
| 3. | İdarəetmə Sistemləri İnstitutu |
| 4. | Radiasiya Problemləri İnstitutu |
| 5. | İnformasiya Texnologiyaları İnstitutu |
| 6. | Biofizika İnstitutu |
| 7. | Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası |
| 8. | Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu |
| 9. | Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu |
| 10. | Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu |
| 11. | Polimer Materialları İnstitutu |
| 12. | Geologiya və Geofizika İnstitutu |
| 13. | Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu |
| 14. | Təbiət Tarixi Muzeyi |
| 15. | Neft və Qaz İnstitutu |
| 16. | Botanika İnstitutu |
| 17. | Zoologiya İnstitutu |
| 18. | Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu |
| 19. | Mikrobiologiya İnstitutu |
| 20. | Dendrologiya İnstitutu |
| 21. | Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu |
| 22. | Genetik Ehtiyatlar İnstitutu |
| 23. | Torpaqşünaslıq və Aqrokimya İnstitutu |
| 24. | İqtisadiyyat İnstitutu |
| 25. | Azərbaycan Respublikasının Təhsil İnstitutu |
| 26. | Elm və Təhsil Nazirliyinin nəzdində "Təhsil sisteminin inkişafı və proqnozlaşdırılması problemləri üzrə" elmi tədqiqat laboratoriyası |
| 27. | Təbii Ehtiyatlar İnstitutu (Naxçıvan) |
| 28. | Bioresurslar İnstitutu (Naxçıvan) |
| 29. | Batabat Astrofizika Rəsədxanası (Naxçıvan) |
| 30. | Ekologiya və Təbii Ehtiyatlar İnstitutu (Gəncə) |
| 31. | Bioresurslar İnstitutu (Gəncə) |
| 32. | Aqrar Problemlər İnstitutu (Gəncə) |
| 33. | Nəbatat Bağı (Gəncə) |
| | **Ali təhsil müəssisələri** |
| 1. | Bakı Dövlət Universiteti |
| 2. | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti |
| 3. | Azərbaycan Dövlət İqtisad Universiteti |
| 4. | Azərbaycan Texniki Universiteti |
| 5. | Azərbaycan Memarlıq və İnşaat Universiteti |
| 6. | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| 7. | Bakı Mühəndislik Universiteti |
| 8. | Bakı Slavyan Universiteti |
| 9. | Azərbaycan Dillər Universiteti |
| 10. | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti |
| 11. | Azərbaycan Rəssamlıq Akademiyası |
| 12. | Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası |
| 13. | Azərbaycan Milli Konservatoriyası |
| 14. | Naxçıvan Dövlət Universiteti |
| 15. | Sumqayıt Dövlət Universiteti |
| 16. | Azərbaycan Texnologiya Universiteti |
| 17. | Gəncə Dövlət Universiteti |
| 18. | Lənkəran Dövlət Universiteti |
| 19. | Naxçıvan Müəllimlər İnstitutu |
| 20. | Mingəçevir Dövlət Universiteti |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan orta ixtisas təhsili müəssisələri və digər qurumlar |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan peşə təhsili müəssisələri və digər qurumlar |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan məktəbəqədər, ümumi təhsil, məktəbdənkənar təhsil müəssisələri və digər qurumlar |
| | **Təsərrüfathesablı elmi xidmət müəssisələri** |
| 1. | "Nafta" Elmi İstehsalat Birliyi |
| 2. | "Aşqar" Elmi İstehsalat Birliyi |
| 3. | "Kompozit" Elmi İstehsalat Birliyi |
| 4. | Təcrübə İstehsalatlı Kibernetika Xüsusi Konstruktor Bürosu |
| 5. | Təcrübə-Sənaye Zavodu |
| 6. | "ETN Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti |
| | **Digər qurumlar** |
| 1. | Təhsildə Keyfiyyət Təminatı Agentliyi |
| 2. | Təhsil Tələbə Krediti Fondu |
| 3. | Təhsilin İnkişafı Fondu |
| 4. | Peşə Təhsilinin İnkişafı Fondu |
| 5. | Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi |
| 6. | Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi |
| 7. | Uşaqların Müdafiəsi İdarəsi |
| 8. | Xalq Təhsili Muzeyi |
| 9. | Xarici tələbələrlə, doktorantlarla və stajkeçənlərlə iş üzrə Şuranın Katibliyi |

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki orta ixtisas təhsili müəssisələrinin və digər qurumların, Peşə Təhsili üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki peşə təhsili müəssisələrinin, digər qurumların və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki məktəbəqədər, ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələri və digər qurumların siyahılarını təsdiq etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 341 **QƏRAR** Bakı şəhəri, 23 sentyabr 2023-cü il

### Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" bəyənilsin.

2. Bu Qərarın 1-ci hissəsində qeyd edilən layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulan digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan bölgədəki erməni əhalisinin reinteqrasiyası üçün ardıcıl addımlar atır

**Böyük Britaniyanın BBC radiosunun Dünya Xidməti "Həftəsonu" verilişində Azərbaycanın Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirlərindən sonra yaranmış vəziyyətlə bağlı reportaj və Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla müsahibə yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, E.Əmirbəyov müsahibəsində ilk növbədə son günlərdə antiterror tədbirləri dayandırıldıqdan sonra görülən işlərə, Qarabağın erməni əhalisinə göstərilən humanitar yardıma diqqət çəkib. Qeyd edilib ki, Azərbaycan tərəfi bölgədəki erməni əhalisinin reinteqrasiyası üçün ardıcıl addımlar atır, eyni zamanda humanitar vəziyyəti yaxşılaşdırmaq məqsədilə əraziyə ərzaq, dərman və digər zəruri malların çatdırılması həyata keçirilir. Azərbaycan hökumətinin Xankəndiyə göndərdiyi 50 ton yük artıq yerli erməni əhalisinə paylanılıb, Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə yaralıların daşınması təmin edilib. Xüsusilə diqqətə çatdırılıb ki, Qarabağda erməni əhalisinin sayı şişirdilmiş şəkildə 120 min nəfər təqdim olunsa da, reallıqda orada yaşayanların sayı 50 min nəfərdən çox deyil.



Xüsusi tapşırıqlar üzrə nümayəndə diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın öz öhdəliklərini tam yerinə yetirməsini, silahlı birləşmələrinin qalıqlarını Azərbaycan ərazisindən çıxarmasını istəyir. Bu proses artıq başlayıb və ilk silahlı dəstələr tərk-silah edilir. Bildirilib ki, könüllü təslim olan silahlılar, həmçinin mülki əhalinin Ermənistan ərazisinə sərbəst keçidi təmin olunacaq, vəziyyət tədricən sabitliyə doğru irəliləyəcək. Etimadın "bazardan satın alınmadığını" bildirən E. Əmirbəyov bu prosesin etimad üzərində qurulmalı olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, yerli əhali ilə birbaşa təmas bu etimadın qurulmasını hədəfləyir. Vurğulanıb ki, Azərbaycanın mülki əhali ilə heç bir problemi olmayıb və yoxdur, əsas hədəf Azərbaycan xalqının həyatı üçün riskə çevrilən qanunsuz silahlı birləşmələr və terrorçu qruplaşmalar idi. Bu proses isə artıq başa çatıb. İndi isə əmin olmaq lazımdır ki, erməniəsilli mülki əhali bütün lazımi tələbat malları (ərzaq, dərman, yanacaq, elektrik enerjisi və sair) ilə təmin olunacaqlarını bilsinlər. Bütün bunlar Azərbaycan hökumətinin təmin etməyə hazır olduğu məsələlərdir.

# Gürcüstanlı parlamentarilər Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

**Azərbaycanda səfərdə olan Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Elisso Bolkvadzenin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 23-də Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin üzvləri əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Sonra Şəhidlər xiyabanına gələn parlamentarilər ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Qonaqları Milli Məclisin Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev müşayiət edib.

***"Azərbaycan"***

# Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət komitələri arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

**Sentyabrın 23-də Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Mədəniyyət komitəsinin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev iki ölkə arasındakı tarixin dərinliklərindən gələn dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərindən söz açıb, Azərbaycanın Gürcüstanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edib. O, iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından bəhs edərək bu kontekstdə parlamentlərarası əlaqələrin əhəmiyyətindən danışıb.

Azərbaycanı və Gürcüstanı ortaq dəyərlərlə yanaşı, eyni coğrafiyanın və ümumi maraqların da birləşdirdiyini deyən Arzu Nağıyev regional sülhün və əməkdaşlığın inkişafı istiqamətində səylərin birləşdirilməsinin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət komitələri arasında bu gün imzalanacaq əməkdaşlıq haqqında memorandumun əlaqələrimizin daha da inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək ölkələrimiz arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərindən danışıb. O, Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yaranan imkanları bütün platformalarda, o cümlədən mədəniyyət platformalarında dəstəkləməyə hazır olduqlarını bildirib.

Görüşün sonunda Milli Məclisin Mədəniyyət komitəsinin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev və Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze "Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi ilə Gürcüstan parlamentinin Mədəniyyət komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalayıblar.

***"Azərbaycan"***

# Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə görüşüb

**Qoşulmama Hərəkatının sədri statusunda ölkəmizin BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Bakı Təşəbbüs Qrupunun sentyabrın 22-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında təşkil etdiyi "Dekolonizasiya: Sakit İnqilab" Konfransının iştirakçıları olan bu şəxslər Fransa müstəmləkəçiliyinə qarşı mübarizədə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın atdığı addımları və həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər.

Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Fransız Polineziyası, Qvadelupa müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, həmçinin Melaneziya Təşəbbüs Qrupunun katibi xüsusilə vurğulayıblar ki, təmsil etdikləri siyasi partiyalar və hərəkatlar uzun illərdir Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparsalar da, BMT kimi nüfuzlu təşkilat çərçivəsində ilk dəfədir kolonizasiyaya dair belə konfransda iştirak ediblər. İştirakçılar səslərinin artıq BMT tribunalarında eşidilməsinin onları ruhlandırdığını və bu xüsusda konfransın təşkilatçısı Bakı Təşəbbüs Qrupunun fəaliyyətini təqdir etdiklərini bildiriblər.

Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan Sakit və Atlantik Okeanı regionunda yerləşən dənizaşırı ərazilərin təmsilçiləri rəsmi Parisin müasir metodlarla həyata keçirtdiyi müstəmləkə siyasəti, habelə bu ərazilərin etnik tərkibinin süni şəkildə dəyişdirilməsi üçün qeyri-qanuni immiqrasiya siyasəti yürütdüyünü, əhalinin etnik tərkibinin süni dəyişdirilməsi üçün bir çox ölkədən, xüsusilə Suriyadan insanların buraya köçürüldüyünü diqqətə çatdırıblar.

# Xarici ölkələrin hərbi attaşeləri Şuşaya səfər ediblər

**Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra ilk dəfə ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Şuşaya səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, hərbi attaşelər antiterror tədbirlərindən sonra Şuşadan Xankəndi istiqamətində Azərbaycan Ordusunun nəzarətinə keçən ərazilərə baxış keçiriblər.

Qonaqlar əvvəlcə terrorçu separatçılara məxsus olmuş hərbi hissədə olublar.



Daha sonra separatçılardan müsadirə olunan texnikalara və silah-sursata baxıblar. General-mayor Mayis Bərxudarov nümayəndə heyətini silahlar haqqında məlumatlandırıb, döyüş sursatlarının hansı ərazidə ələ keçirildiyi barədə onlara danışıb.

Bu günədək ələ keçirilən qənimətlərin siyahısında 4 tank, 1 PDM, 3 MT-LB ZQ-20/3 "Zastava", 12 haubitsa, 12 minaatan, 468 mina, 956 mina üçün atım, 441 minaatan mərmisi, 22 qumbaraatan, 46 qumbaraatan mərmisi, 313 atıcı silah, 66 min 242 patron, 50 raket, 300 partladıcı, 62 əl qumbarasının olduğu qeyd edilib.

Daha sonra ələ keçirilən hərbi qənimətlərlə bağlı videoçarx nümayiş olunub.

Qeyd edək ki, səfərdə 9 attaşe və iki beynəlxalq təşkilat nümayəndəsi iştirak ediblər. Onları Müdafiə Nazirliyinin rəsmiləri müşayiət ediblər.

# Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasında müxtəlif məsələlərə toxunub

Dünya, sərhədləri aşan çoxsaylı problemlərlə üzləşməyə davam edir. İqlim dəyişikliyi tendensiyalarının kəskinləşməsindən tutmuş köklü yoxsulluğa, artan gərginliyə və dağıdıcı pandemiyalara qədər bu çağırışlar yerimizdən və ya məkanımızdan asılı olmayaraq hamımızı narahat edir, cəsur və yekdil tədbirlər tələb edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında səsləndirib.

"Hazırkı beynəlxalq siyasət getdikcə daha çox parçalanır və çoxtərəfliliyin bölünməsinə və aşınmasına gətirib çıxarır.

Artan dözümsüzlük və ayrı-seçkilik tendensiyası, xüsusən də islamofobiya və nifrət nitqinin həyəcanverici dalğası narahatedicidir. Bu çağırışın qarşısını almaq üçün çoxəsrlik müxtəliflik və multikulturalizm ənənələrinə sahib olan Azərbaycan müxtəlif mədəniyyətlər və dinlər arasında dialoqun, qarşılıqlı anlaşmanın və hörmətin təşviqinə qətiyyətlə inanır. Azərbaycan hökuməti "Bakı Prosesi" və "Mədəniyyət naminə sülh" kimi mühüm qlobal təşəbbüslər vasitəsilə mədəniyyətlərarası və dinlərarası dialoqu ardıcıl surətdə təşviq edib.

Artan çağırışlar fonunda Birləşmiş Millətlər Təşkilatının beynəlxalq həmrəyliyi və əməkdaşlığı gücləndirməyə davam etməsi vacibdir", - deyə nazir qeyd edib.

* * *

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinin ciddi riayət olunmasına, ayrı-seçkilik olmadan tətbiqinə söykənən BMT-nin əsasını təşkil edən çoxtərəfli sistemin fəallaşmasının və islahatların aparılmasının tərəfdarıdır.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında səsləndirib.

"Bu baxımdan, gələcəyin Zirvə toplantısının qlobal fəaliyyəti gücləndirmək və BMT Nizamnaməsinə və çoxtərəfliliyə kollektiv öhdəliyi nümayiş etdirmək üçün bir fürsət olacağına ümid edirik", - deyə C.Bayramov vurğulayıb.

* * *

Azərbaycan milli səviyyədə və Qoşulmama Hərəkatının sədri kimi sülh, təhlükəsizlik və qlobal Dayanıqlı İnkişaf Gündəliyinə töhfə verməkdə davam edir və beynəlxalq həmrəylik və çoxtərəfliliyi təşviq etmək üçün səylərini əsirgəmir.

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında söyləyib.

Nazir qeyd edib ki, COVID-19 pandemiyasının başlamasından bəri Azərbaycan bu çağırışla mübarizə aparmaq üçün bir sıra qlobal təşəbbüslər irəli sürərək mübarizənin ön sıralarında yer alıb.



"Beynəlxalq əməkdaşlıq və siyasi iştirak qadınlar və gənclər də daxil olmaqla, müxtəlif maraqlı tərəflərin cəlb edilməsini tələb edir. Azərbaycan, Şuşa Sazişinə uyğun olaraq Bakıda daimi katibliyi olan Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təsis edilməsi və Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılmasına təşəbbüs göstərməklə bunu Qoşulmama Hərəkatına sədrliyinin əsas fokusuna çevirib. Azərbaycan həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasının təşəbbüskarı olub", - deyə C.Bayramov diqqətə çatdırıb.

* * *

Təmiz mühit və yaşıl inkişaf yeni milli inkişaf strategiyamızın beş prioritet istiqamətindən birinə çevrilib. Azərbaycan könüllü olaraq 2050-ci ilə qədər istixana qazı tullantılarını 40 faizə endirməyi və Qarabağ və Şərqi Zəngəzur bölgələrində "yaşıl enerji" zonası yaratmağı öhdəsinə götürüb.

Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında bildirib.

"Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolu daha da genişlənib. Belə ki, ölkəmiz ənənəvi xam neft istehsalçısından etibarlı təbii qaz təchizatçısına çevrilib. Avropanın ən böyük infrastruktur layihəsi olan "Cənub qaz dəhlizi"nin tikintisi başa çatdıqdan sonra Azərbaycan daha beş Avropa ölkəsinə təbii qaz tədarükçüsünə çevrilib. Avropanın enerji təhlükəsizliyinin misli görünməmiş çətinliklərlə üzləşdiyi bir vaxtda yeddi ölkə Azərbaycandan təbii qaz istehlak edir. Yaxın gələcəkdə bu rəqəm on Avropa ölkəsinə qədər artacaq", - deyə o qeyd edib.

* * *

Otuz ilə yaxın hərbi işğal nəticəsində Azərbaycan xalqının çəkdiyi misli görünməmiş əzablara, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan normallaşma gündəliyi təşəbbüsü ilə çıxış edib.

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında səsləndirib.

"Ölkəmiz qarşı tərəfə bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərin bütövlüyü və toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi çərçivəsində hər iki tərəfin legitim maraqlarına bərabər və qarşılıqlı hörmətə əsaslanan sülh təklif edib.

Buna baxmayaraq, müşahidə etdiyimiz tendensiya, Ermənistanın danışıqları imitasiya etmək, götürdüyü öhdəliklərdən son anda yayınmaq və konkret qərarlar qəbul etməkdən çəkilmək üçün danışıqların hər mərhələsində siyasi, hərbi və digər təxribatlar törətmək üçün keçmiş təcrübəsini təkrarlaması oldu.

Beləliklə, Azərbaycan və Ermənistan arasında möhkəm sülhün bərqərar olması səyləri yenidən Ermənistanın revanşizm siyasətinin qurbanına çevrildi", - deyə Ceyhun Bayramov vurğulayıb.

* * *

Azərbaycan, Ermənistanın destruktiv mövqeyindən irəli gələn bütün ciddi çağırışlara baxmayaraq, iki ölkənin legitim maraqlarına bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında Ermənistanla əsl dialoqa və danışıqlara hazır olduğunu bir daha təsdiqləyir.

Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında bildirib.

"Biz, həm Azərbaycan, həm də Ermənistan üçün mehriban qonşuluq münasibətləri qurmaq və beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində iki suveren dövlət kimi dinc-yanaşı yaşamaq üçün tarixi imkanın mövcudluğuna hələ də qəti şəkildə inanırıq", - deyən nazir diqqətə çatdırıb ki, bu fürsətdən istifadə etməyin vaxtı çatıb.

C.Bayramov vurğulayıb ki, Ermənistan rəhbərliyinin Azərbaycanın Qarabağ bölgəsi daxil olmaqla suverenliyinin və ərazi bütövlüyünün tanınması ilə bağlı şifahi bəyanatları əməli addımlara çevrilməlidir.

* * *

Münaqişə zamanı itkin düşmüş 4000-ə yaxın Azərbaycan vətəndaşının, o cümlədən 719 mülki şəxsin taleyi məlum deyil. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycanın dinc sakinlərinin və beynəlxalq humanitar hüququn müdafiəsi altında olan digər şəxslərin qəsdən öldürülməsini sübut edən bir neçə kütləvi məzarlıq aşkar olunsa da, Ermənistan itkin düşmüş şəxslərin taleyini aydınlaşdırmaqdan imtina edir. Bu məsələnin həlli təkcə qurbanların və onların ailələrinin hüquqlarına riayət olunması baxımından deyil, həm də münaqişədən sonrakı barışıq və vəziyyətin normallaşdırılması baxımından vacibdir.

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələri zamanı çıxışında səsləndirib.

Nazir deyib: "1987-1991-ci illərdə Ermənistan beynəlxalq hüququ kobud şəkildə pozaraq 300 minə yaxın azərbaycanlını öz əcdadlarının torpaqlarından zorla didərgin saldı. Ermənistandakı azərbaycanlılara aid bütün yaşayış məntəqələrinin və toponimlərinin adı dəyişdirilib, tarixi və mədəni irsimiz qəsdən dağıdılıb və məhv edilib. Qərbi Azərbaycan İcmasının dialoqa başlamaq və öz vətənlərinə təhlükəsiz və ləyaqətli qayıdışı təmin etmək üçün dəfələrlə çağırışlar etməsinə baxmayaraq, Ermənistan hökuməti onların Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Qaçqınların Statusu haqqında Konvensiya və digər vacib beynəlxalq aktlarda təsbit olunmuş fundamental qayıdış hüququnu həyata keçirməkdən imtina edir.

Azərbaycan beynəlxalq öhdəliklərinə sadiq şəkildə və konstruktiv dialoqa açıq olaraq beynəlxalq hüququn pozulmasını qəbul etməyəcək və beynəlxalq səviyyədə müvafiq addımlar atmağa davam edəcək".

# Birləşmiş Krallığın dövlət naziri antiterror tədbirlərinin məqsəd və nəticələri barədə ətraflı məlumatlandırılıb

**Sentyabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirak məqsədilə Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Krallığın Cənubi Asiya, Afrika, BMT, İnsan Hüquqları üzrə dövlət naziri Lord Ahmad ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov Azərbaycanın Böyük Britaniya ilə münasibətlərinə xüsusi önəm verdiyini, iki ölkə arasında son vaxtlar siyasi dialoqun intensivləşməsinin iqtisadi, təhsil və digər yeni sahələr üzrə əməkdaşlığın inkişafına təkan olacağını bildirib. Eyni zamanda britaniyalı həmkarı ilə parlamentlərarası münasibətlərin inkişafı, regional və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparıb.

Nazir həmkarını regionda mövcud vəziyyət, Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində yaradılmış qondarma rejimin hərbi təxribatları nəticəsində yaranmış gərginlik, habelə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərinin məqsəd və nəticələri barədə ətraflı məlumatlandırıb.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq mövcudluğunu davam etdirən erməni silahlı birləşmələrinə qarşı aparılan antiterror tədbirləri nəticəsində bölgədə sülh və təhlükəsizliyə hədə olan bu silahlı qrupların buraxıldığı və tərk-silah işlərinə başlandığı diqqətə çatdırılıb.

Görülən antiterror tədbirləri çərçivəsində mülki vətəndaşlara heç bir zərərin dəymədiyi, onların təhlükəsizliyinin təmini istiqamətində öncədən bütün lazımi tədbirlərin görüldüyü bildirilib.

Azərbaycanın Qarabağda yaşayan erməni sakinlərinin hüquq, azadlıq və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası, tərəfdar çıxdığı beynəlxalq insan hüquqları mexanizmlərinə uyğun olaraq təmin ediləcəyi vurğulanıb.

C.Bayramov həmsöhbətini Azərbaycanın Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təsis edilməsi ilə bağlı baxışı, bu istiqamətdə atılan praktiki addımlar, habelə Ermənistanla normallaşma gündəliyi və Qarabağda yaşayan erməniəsilli sakinlərin reinteqrasiya prosesi barədə məlumatlandırıb.

Görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

# AZƏRBAYCAN QARŞIYA QOYULAN BÜTÜN HƏDƏFLƏRƏ NAİL OLDU

## Prezident hər şeyi vaxtında və məharətlə edir



### İlham Əliyev 200 illik erməni avantürasını məhv etdi

**İkiəsrlik erməni avantürası cəmi üç ilə diz çökdürüldü!**

Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrildi...

Onilliklərin ardından Qarabağ və Şərqi Zəngəzura yeni həyat qayıtdı, viran qoyulmuş yurdlarımız cənnətə çevrilməyə başlandı, didərgin sakinlərimiz qayıdış köçləri ilə dədə-baba torpaqlarına üz tutdular.

Təcavüzkar Ermənistan "Qarabağ Azərbaycandır!" həqiqətini etiraf etməyə, ölkəmizin suveren ərazilərinin dəqiq ölçülərini dilə gətirməyə məcbur edildi.

Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz boyu üçrəngli bayrağımız dalğalandırıldı.

Beynəlxalq Ədalət Məhkəməsinin Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı Ermənistanın tələbini yekdilliklə rədd etməsi ölkəmizin hüquq platformasında da təcavüzkar üzərində qələbə qazanması deməkdir.

Qarabağda aparılan antiterror tədbirləri nəticəsində isə Azərbaycan bütün ərazilərində suverenliyini tam bərpa etdi.

Hər biri barədə cild-cild kitablar yazılacaq və xalqımızın milli maraqlarının təmini istiqamətində ardıcıllıqla qazanılan bu misilsiz zəfərlər, qalibiyyətlər, uğurlar cəmi üç il ərzində əldə olundu.

Nəyi necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə, müdrikliklə, məharətlə və təmkinlə apardığı siyasətin nəticəsində Azərbaycan xalqı 2020-ci il sentyabrın 27-də çıxdığı haqq yürüşünü 2023-cü il sentyabrın 20-də tarixin, hüququn, ədalətin təmin olunduğu zirvəyə çatdırdı.

### Əski parçanızı da götürüb haradan gəlmisinizsə, oraya qayıdın

"İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi".

Bəli, 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyevin bəyan etdiyi kimi, illərdir sürdürülən sərsəm "Böyük Ermənistan" planları "dəmir yumruğ"un qətiyyətli zərbələri ilə alt-üst edildi.

Cari il sentyabrın 19-20-də Qarabağda uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi.

Qanunsuz xunta rejiminin "bayraq" adlandırdığı əski parçası isə xuntaçıların qoltuğuna verildi ki, haradan gəliblərsə, götürüb oraya getsinlər. Çünki Qarabağ Azərbaycan ərazisidir və burada kriminal rejim at oynada bilməz.

10 noyabr üçtərəfli Bəyanatında Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarması ilə bağlıdır. Lakin 44 günlük Vətən müharibəsindən ötən müddət ərzində Bakının da dəfələrlə bu məsələ ilə bağlı narazılığını dilə gətirməsinə baxmayaraq, Ermənistan bəzi xarici havadarlarının dəstəyi ilə bu öhdəliyini yerinə yetirməkdən yayınırdı.

Ermənistan "dəmir yumruğ"un zərbəsini "unutduqca", Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını da "yadından çıxarır", ölkəmizə qarşı siyasi, hərbi və digər təxribatlarını intensivləşdirirdi.

Hətta sarsaq ideologiyalı erməni lobbisinə, bəzi riyakar xarici ölkə və təşkilatlara güvənən İrəvan İkinci Qarabağ müharibəsi başa çatandan sonra, cari il sentyabrın 9-da Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərmək kimi axmaq cürət nümayiş etdirmişdi.

Sentyabrın 19-da səhər saatlarında erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində mülki vətəndaşlarımızın və hərbçilərimizin mina terrorunun qurbanına çevrilməsi isə səbrimizi daşıran son damla oldu.

### Cəmi 23 saat ərzində Ermənistana başa salındı ki...

Dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandıran Azərbaycan lokal xarakterli antiterror tədbirləri zamanı cəmi bir gün ərzində terrorçuları cəzalandırdı, xuntaçılara "ağ bayraq" qaldırtdırdı.

23 saat ərzində Ermənistana başa salındı ki, istənilən təxribatlarının Azərbaycan tərəfindən layiqli cavabı veriləcək və yerlərinə otuzdurulacaqlar.

Antiterror tədbirləri nəticəsində igid döyüşçülərimiz böyük qəhrəmanlıq və peşəkarlıq göstərərək Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş Ermənistanın ordu bölmələrinin böyük hissəsini tamamilə məhv etdilər. Eyni zamanda hərbi texnika məhv edildi və sıradan çıxarıldı.

Xüsusi vurğulayaq ki, lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimiz tərəfindən mülki əhali və infrastruktur obyektləri hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı.

Qarabağda aparılan antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi, Azərbaycan qarşıya qoyulan hədəflərə nail oldu, bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü. Bundan sonra bütün Qarabağ ərazisində Azərbaycan qanunları və siyasi hakimiyyəti təmin olunacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə görüş keçirildi.

Artıq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün humanitar məqsədlə ərzaq yükü göndərilib.

### Heç kim bizimlə ultimatum dilində danışa bilməz!

Prezident İlham Əliyevin böyük əzm və səylə milli maraqlarımızın təmini istiqamətində apardığı qətiyyətli siyasət xalqımıza ardıcıl qələbələr qazandırdı.

Qalib lider iki əsrdir ki, ermənilərin və havadarlarının arxasınca düşdükləri sərsəm "Böyük Ermənistan" planını, 200 illik erməni avantürasını darmadağın etdi.

Zəfər sərkərdəsi tarixi ərazilərimizə göz dikərək iki əsrdir xalqımızın qanına susayan faşizm xislətli erməni millətçilərinə və onların havadarlarına başa saldı ki, Azərbaycan heç zaman suveren ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Necə ki bunu sentyabrın 20-də xalqa müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev qətiyyətlə bəyan etdi: "Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Ermənistana verilən tarixi dərs



**44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbə Ermənistana və dünya erməniliyinə tarixi dərs olmalı idi. Normalda ermənilər dərk etməli idilər ki, zaman ötən əsrin əvvəlləri deyil, bu gün qüdrətli Azərbaycandan yenidən torpaq qoparmaq eşqinə düşmək ağılsızlıqdır.**

Amma nə edəsən ki, ermənilər tarix boyunca həmişə başqa dövlətlərə sığınıb istəklərinə nail olmağa çalışıblar. Elə ona görə bu dəfə də onlar xam xəyallara qapılıb Azərbaycandan torpaq qopara biləcəklərinə ümid edirdilər. Ümidləri isə 44 günlük Vətən müharibəsində daşa dəydi. Buna baxmayaraq, həmin savaşdan keçən 3 il ərzində Azərbaycan dövlətinin sülh çağırışlarına konstruktiv yanaşmaq əvəzinə ölkəmizə qarşı revanşist demarşa başladılar. Bu da onlara bəs etmədi. Azğınlıqları o yerə çatdı ki, təxribat-diversiya aktlarından belə çəkinmədilər.

Azərbaycan xalqının və rəhbərliyinin səbri böyükdür, amma sonsuz deyil. Həddini aşan separatçılara yenidən dərs verməyin vaxtı çatmışdır. Nəyi nə vaxt edəcəyini hamıdan yaxşı bilən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ iqtisadi rayonuna daxil olan ərazidə lokal antiterror tədbirlərinin görülməsi barədə əmr verdi. Cəmi 23 saat 43 dəqiqə kifayət etdi ki, Azərbaycanın Qarabağ bölgəsindəki erməni separatçılarının qanunsuz hərbi qüvvələri silahları yerə qoysunlar.

Məlumdur ki, ermənilər 30 il Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının dörd qətnaməsini icra etməmişdi. Ordumuz üç onillikdə icra olunmayan həmin qətnamələri 44 gündə həyata keçirdi. Bu dəfə isə bir sutkaya Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci il noyabrın 10-da imzalanan bəyanatın 4-cü bəndinin icrası təmin olundu. Qarabağda məskunlaşan ermənilər Azərbaycanın Konstitusiyasının tələbləri çərçivəsində ölkəmizə reinteqrasiya olunmaları barədə təklifimizi də rədd edirdilər. Lokal antiterror tədbirlərindən sonra isə sözəbaxan saqqallı uşaq kimi Yevlax şəhərinə gəlib, Azərbaycan dövlətinin tələblərini dinləməli oldular. Üstəlik, bizdən ərzaq, yanacaq və digər humanitar yardımlar göstərilməsini də xahiş etdilər. Halbuki bir neçə gün əvvəl xoş məramla göndərdiyimiz 40 ton unu qəbul etmək istəmirdilər. Amma biz xalqımıza məxsus humanizm prinsiplərinə sadiq qalaraq istədikləri yardımları Xankəndiyə göndərdik və onlar bu dəfə "naz" etmədilər.

Bu yerdə bir məqama xüsusi diqqət yetirmək lazımdır. Ermənistan və onun havadarları hər vəchlə çalışırdılar ki, Qarabağda yaşayan erməniləri bizə bərabərhüquqlu tərəf kimi sırısınlar. Bu məqsədlə görüşlərin xarici ölkələrin birində keçirilməsini, üstəlik, gündəliyə digər məsələləri salmağa çalışırdılar. Azərbaycan təbii ki, buna getmədi və görüş baş tutacağı halda yalnız Qarabağda yaşayan ermənilərin cəmiyyətimizə reinteqrasiyası məsələsinin müzakirə ediləcəyini bildirdi, həmçinin vurğuladı ki, bu, ölkəmizin daxili işidir, heç kəs ona qarışa bilməz. Dedik və nail olduq. Yevlaxda ermənilərlə danışıq aparan şəxs Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinləri ilə təmaslar üzrə məsul Ramin Məmmədov oldu. O, Milli Məclisin bu bölgədən seçilən deputatıdır, Prezident Administrasiyasını təmsil edən şəxs deyil. Bu isə o deməkdir ki, müzakirələr icmalar arasında gedir. Başqa sözlə desək, ermənilərlə bir masa arxasında oturmaq onların havadarlarının istədikləri kimi siyasi görüş deyil, icmalar arasında təmasdır.

Xəbər verildiyi kimi, lokal antiterror tədbirləri bitdikdən dərhal sonra BMT TŞ-də Qarabağ İqtisadi Zonasında yaşayan ermənilərin "humanitar vəziyyəti" müzakirə olundu. Məsələni Ermənistanla yanaşı, onun "böyük bacı"sı Fransa gündəliyə gətirmişdi. Müzakirə zamanı Fransanın, Almaniyanın, ABŞ-nin və Avropa İttifaqının bəzi nümayəndələrinin heç bir həqiqətə və ədalətə sığmayan çıxışlarından bu qənatə gəlmək olardı ki, Azərbaycan öz ərazisində beynəlxalq qanunlara uyğun lokal antiterror tədbirləri keçirməyib, sanki başqa bir dövlətin ərazisini işğal edib. Halbuki nə onların, nə də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın şər, böhtan dolu çıxışlarının arxasında bircə fakt və dəlil yox idi. Belə olmasaydı, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tək bir cümlə ilə onların bütün yalanlarını ifşa edə bilməzdi.

Sentyabrın 19-20-də həyata keçirilən lokal antiterror tədbirlərinin bizim üçün böyük siyasi və hərbi əhəmiyyəti var. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan lokal antiterror tədbirlərindən sonra Prezident İlham Əliyevlə əlaqə saxlayanda dövlətimizin başçısının "hər şey bitmişdir" deməsi də bunu sübut edir. Bu həm də Azərbaycan tarixində 30 ildən çox çəkən acı bir səhifənin bağlanması demək idi.

Bəli, danılmaz həqiqətdir ki, Prezident İlham Əliyev ermənilərin 200 illik "böyük Ermənistan" planını tarixin zibilliyinə atdı. Bununla dünyadakı erməniləri iki əsr bir-birinə bağlayan xülya məhv oldu. Hələ "qaynar başlı" erməni siyasətçiləri və ideoloqları bu həqiqəti dərk etmək istəmirlər. "Soyuq başlılar"ı isə reallığı anlayıb onu açıq şəkildə etiraf edirlər. Etiraf edirlər ki, İlham Əliyev onların 200 illik "əfsanəvi dövlət"i bərpa etmək üçün qonşulara qarşı irəli sürdükləri torpaq iddialarına son qoydu. Görünür, onların bu həqiqəti dərk etmələri üçün Anadolu türkləri demiş, "min nəsihətdən bir müsibət yaxşı" imiş.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## *BMT-də keçirilən "Dekolonizasiya:* Sakit İnqilab" konfransının yekun bəyanatı qəbul olunub

**Bakı Təşəbbüs Qrupu tərəfindən BMT-nin mənzil-qərargahında keçirilən "Dekolonizasiya: Sakit İnqilab" konfransının yekun bəyanatı qəbul olunub.**



AZƏRTAC xəbər verir ki, konfransın iştirakçıları Bakı Təşəbbüs Qrupunu rəsmi fəaliyyətə başlaması ilə əlaqədar təbrik edib, Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyinin (Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun sədri qismində) dəstəyi ilə konfransın təşkilinə görə minnətdarlıqlarını bildiriblər.

Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Fransız Polineziyası, Qvadelupa müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, Melaneziya Təşəbbüs Qrupunun katibliyi və Bakı Təşəbbüs Qrupunun nümayəndələri Birləşmiş Millətlər Təşkilatının və Qoşulmama Hərəkatının Nizamnaməsinin əsas prinsiplərinə, həmçinin dekolonizasiyaya dair müvafiq qətnamələrə sadiq olduqlarını bildirib və müstəmləkəçilik altında olan bütün millətlərin azad edilməsindən əvvəl dekolonizasiya prosesinin tamamlanmasının vacibliyini bir daha vurğulayıblar.

Vurğulanıb ki, beynəlxalq hüququn fundamental prinsipləri çərçivəsində müstəqillik uğrunda mübarizə aparan xalqlara dəstək vermək BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının əsas hədəflərindən birini təşkil edir.

Bu, müstəmləkəçilikdən əziyyət çəkən xalqların milli müstəqilliyi uğrunda mübarizədə qarşısına qoyduğu çoxsaylı çağırışlara, tarixən Fransanın müstəmləkə gücü ilə insan, iqtisadi, ekoloji və mədəni cinayətlərə görə hüquqi təzminat tələbinə həmrəyliklə necə cavab vermək barədə səylərini birləşdirməyə mühüm imkanlar yaradır.

Nyu Yorkda təmsil olunan Yeni Kaledoniya, Fransız Polineziyası, Martinika, Qayana və Qvadelupa müstəqillik və millətçi hərəkatları dünyaya, eləcə də mənzil-qərargahında olduqları BMT başda olmaqla, beynəlxalq təşkilatlara təcili müraciətlə çıxış edərək xalqlarının mənafeyinə uyğun olaraq azadlıq hüquqlarına, təzminat və inkişaf kimi əsas səylərinin dəstəklənməsi üçün səslərini ən yüksək səviyyədə ucaldıblar.

"Biz Noumea Müqaviləsi ilə başlayan dekolonizasiya prosesi üzrə FLNKS-nin 3-cü referendumunun etirazını Beynəlxalq Ədalət Məhkəməsinə təqdim etmək qərarını dəstəkləyirik.

Fransız Qvianası, Martinika və Qvadelupa ilə əlaqədar isə biz tələb edirik ki, bu ölkələr Birləşmiş Millətlər Təşkilatının dekolonizasiya prosedurları üzrə ölkələr siyahısına yenidən daxil olunsun.

Fransa Respublikası Maohi Nuinin müstəmləkədən azad olacaq ölkələr siyahısına yenidən yazılmasından sonra Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən hər il Fransız Polineziyası, Maohi Nui bölgələrinə aid məsələlərdə boş kürsü rolunu oynayır. Biz Fransadan 2013-cü, 2019-cu, 2020-ci və 2022-ci illərdə qəbul edilən qətnamələrin tələblərinə uyğun olaraq dekolonizasiya prosesi ilə bağlı danışıqlara başlamasını tələb edirik.

Bəşəriyyətimizin qlobal təhlükələrlə üzləşdiyi bir vaxtda təşkilatımız təntənəli şəkildə bəyan edir ki, müstəmləkəçilik və neokolonializmin tamamilə ləğvi və xalqlar arasında əməkdaşlığa, bərabərliyə əsaslanan yeni dünyanın qurulması, qarşılıqlı hörmət və xalqların suverenliyi beynəlxalq münasibətlərin əsasını təşkil etməlidir.

Bakı Təşəbbüs Qrupu və Cənubi Amerika, Karib hövzəsi, Hind okeanı və Sakit okean hövzəsindəki Fransa koloniyalarının təşkilatları xalqlarımız arasında zəruri həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının Dekolonizasiya üzrə Xüsusi Komitəsi və digər BMT orqanları ilə sıx əməkdaşlığın qurulması məqsədilə öz nəticəyönümlü fəaliyyətini davam etdirəcək", - deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində bu il iyulun 6-da Bakıda keçirilmiş ilk tədbirdə tərəflər Bakı Təşəbbüs Qrupunun yaradılmasına dair razılığa gəlmiş və müstəmləkəçiliyə qarşı mübarizədə əməkdaşlığın davam etdirilməsinə hədəflərini ifadə etmişdilər.

## *Anar EYVAZOV:* "Qarabağda yaşayan azərbaycanlı və erməni sakinlərin təhlükəsizliyinə zəmanət veririk"



Hazırda Azərbaycan Silahlı Qüvvələrinin mühəndis bölmələri tərəfindən ərazi təmizlənir. Biz Qarabağda yaşayan erməni sakinləri ərzaq, su və istilik ilə təmin edirik. Demilitarizasiya prosesi, eləcə də Şuşa-Xankəndi yolunun təmizlənməsi davam edir. İndi isə biz otuz ildən çox müddət ərzində qeyri-qanuni işğalın simvolu olmuş tankın yerləşdiyi ərazidəyik. Gördüyünüz kimi, tank artıq burada yoxdur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov deyib.

O qeyd edib ki, sentyabrın 19-da Azərbaycanın 4 polis əməkdaşı Əhmədbəyli-Füzuli-Şuşa yolunda mina partlayışı nəticəsində həlak olub. Bundan əlavə, həmin gün günorta saatlarında 2 hərbi qulluqçumuz Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə qanunsuz fəaliyyət göstərən erməni birləşmələri tərəfindən atəşə məruz qalıb. Buna cavab olaraq Azərbaycan tərəfindən görülmüş lokal antiterror tədbirləri nəticəsində erməni dəstələrinin tərk-silah olunması ilə bağlı razılıq əldə edilib. Hazırda bu proses davam edir.

"Azərbaycanın Silahlı Qüvvələri Qarabağda yaşayan azərbaycanlı və erməni sakinlərin təhlükəsizliyinə zəmanət verir. Bu məqsədlə minatəmizləmə işləri aparılır. Həmçinin Kəlbəcər, Füzuli və Ağdam şəhərlərində müvəqqəti çadır düşərgələri qurulub. Bu çadır düşərgələrində 1000 nəfərə yaxın sakin ərzaq, su və elektrik enerjisi ilə təmin olunacaq", - deyə Müdafiə Nazirliyinin rəsmisi əlavə edib.

# AZƏRBAYCAN QARŞIYA QOYULAN BÜTÜN HƏDƏFLƏRƏ NAİL OLDU

## Qarabağda yeni dövr başladı

### Mərkəzi hakimiyyət Qarabağda yaşayan erməni vətəndaşlarımızın ehtiyacını təmin edir

**Azərbaycan dövləti ərazilərində yaşayan ermənəsilli əhalinin müqəddəratını düşünür. Bunu Azərbaycan Ordusu Qarabağda lokal xarakterli antiterror əməliyyatı aparmaq məcburiyyətində qalarkən də, sonrakı günlərdə də bütün dünya bir daha gördü.**



Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün humanitar yardım göstərilir. Sentyabrın 22-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən içərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və çörək dolu 2 avtomobil Ağdam-Xankəndi yolu ilə ünvanına çatdırıldı. Bundan sonra da humanitar məqsədli yüklərin göndərilməsi təmin ediləcək.

Prezident İlham Əliyev çıxışlarında bəyan etmişdi ki, Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Dövlət başçısı bildirirdi ki, bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar: "Hər halda əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır".

Vətən müharibəsi bitəndən sonra da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrin və kriminal xunta rejimini təmsil edən qüvvələrin davam etdirdikləri özbaşnalıqlara, terror əməllərinə son qoymaq məqsədilə həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı zamanı mülki əhalinin təhlükəsizliyinin qorunmasına, ərzaq, tibbi vəsait təminatlarına diqqətlə, həssaslıqla yanaşıldı. Aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisinin zərbə altına düşməmələri və mülki əhalinin qorunmalı olduğu barədə əvvəlcədən Prezident İlham Əliyev tərəfindən hərbi birləşmələrimizə ciddi tapşırıq verilmişdi. Dövlət başçısı sentyabrın 20-də xalqa müraciətində diqqətə çatdırdı ki, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etdilər: "Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

Bölgədə aparılan qısamüddətli lokal xarakterli antiterror tədbirlərində Azərbaycan Ordusunun qələbəsi haqqın, ədalətin zəfəridir. Azərbaycan öz suverenliyini tam bərpa etdi. Bu qələbə həm də Xankəndi və ətraf ərazilərdə yaşayan ermənəsilli əhalini kriminal xunta rejimindən xilas etdi. Prezident İlham Əliyev sözügedən müraciətində bir daha vurğuladı ki, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır, sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi: "Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır".

Prezident İlham Əliyev bildirdi ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür, çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər.

Separatçı rejim Xankəndi və ətraf ərazilərdə yaşayan ermənəsilli əhalinin Azərbaycana reinteqrasiya olunmasına imkan vermirdi, onları həmişə qorxu və təzyiq altında saxlayırdı. Baş verən son hadisələr reinteqrasiya prosesinin sürətlənməsi üçün də ciddi şərait yaratdı. Hadisələrin gedişi ümidverici gələcəkdən xəbər verir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan BMT-də qalib oldu

### Separatizmi, terrorizmi dəstəkləyən "ədalət carçıları"nın növbəti şousu da iflasa uğradı

**BMT Təhlükəsizlik Şurasının son yığıncağında düzənlənən növbəti şou antiazərbaycançı şəbəkənin məğlubiyyəti ilə nəticələndi. Dünyanın ən böyük siyasi təşkilatı bu dəfə də uydurmalara deyil, həqiqətlərə əsaslandı.**





İllərlə Azərbaycan vətəndaşlarının hüquqlarının tapdanmasına, başlarına gətirilən müsibətlərə kor, lal olanların indi "haqq carçısı"na çevrilərək siyasi şou düzənləmələri artıq heç bir nəticə vermir. Çünki dünya yalanlara deyil, həqiqətlərə inanır.

Amma buna baxmayaraq, yenə də məkrli niyyətləri davam edir, kimlərsə Azərbaycanın əleyhinə hansısa qətnamənin qəbul edilməsinə can atırlar. BMT Təhlükəsizlik Şurasında keçirilən müzakirələr bunu təsdiqləyir. Fransanın təşəbbüsü ilə təşkil olunan bu toplantıda Avropa İttifaqı və Almaniyanın da ölkəmizə qarşı iftira dolu çıxışları bir daha ikili standartları, həmin dairələrin Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı olmadıqlarını göstərdi. Bu dəfə də Azərbaycan əleyhinə sənədin qəbuluna çalışan "haqq-ədalət yolçuları"nın niyyəti öz başlarında çatladı.

#### Azərbaycana qarşı qərəzli mövqe tutmaq qəbuledilməzdir

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, Almaniya kimi qədim tarixi və dünya siyasətində çəkisi olan bir dövlətin bu gün erməni yalanlarına inanaraq tərəf tutması təəssüf doğurur. Bu, ilk növbədə Almaniyanın müəyyən dairələrinin antitürk əhvali-ruhiyyəsində olması ilə bağlıdır: "Türkiyənin artan nüfuzu, dünya birliyindəki siyasi çəkisi Almaniyada bəzi siyasi dairələri və şirkətləri heç də qane etmir. Onlar Türkiyə nümunəsində özlərinə rəqib görürlər. Türkiyə kimi dövlətlə dost olmaq əvəzinə onun yaxın müttəfiqi, qardaşı olan Azərbaycana qarşı qərəzli mövqe tutmaq qəbuledilməzdir. Bununla belə Azərbaycan özünə qarşı hansı mövqe tutulmasından asılı olmayaraq, müstəqilliyini möhkəmləndirir, milli maraqlarını yüksək səviyyədə qoruyur, daxili məsələlərini özü həll edir".

A.Mirzəzadə qeyd edib ki, Almaniya, Fransa və digər beynəlxalq güclərə qalsaydı, Azərbaycan Qarabağ bölgəsində separatçı rejimə hələ də dözməli idi. Azərbaycan problemini özü həll edir. Bəzi ölkələr bu məsələdə Azərbaycandan nümunə götürməlidirlər. "İnanıram ki, Almaniyada Azərbaycanla dostluq etmək istəyən, həqiqətləri bilən və o mövqedən çıxış edən çox sayda siyasətçilər, biznesmenlər var. Əsl Almaniya dedikdə biz onları nəzərə alırıq", - deyə deputat əlavə edib.

#### Etnik separatizm və terroru müdafiə edənlərin fiaskosu

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, BMT Təhlükəsizlik Şurası Azərbaycanla bağlı söz haqqını çoxdan itirib. Çünki bəzi daimi üzvləri üçün maraq kəsb edən məsələlər üzrə qətnamələri saatlar içində icra edən BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən 4 qətnaməni 27 il ərzində icra etməyib. Azərbaycan özü hərbi-siyasi yolla BMT-nin qətnamələrinin icrasına nail oldu. Son üç ildə bir ovuc separatçı üçün 4 dəfə toplanan Təhlükəsizlik Şurası 30 il 1 milyon məcburi köçkünün iztirabını görməzdən gəldi. Öz evindən işgəncə və təzyiqlər altında, zorakılıqla qovulan 350 minlik qərbi azərbaycanlını 35 ildir ki, görməzdən gəlir. Mina terroru ilə bağlı az qala hər il qətnamələr qəbul edən, Oslo, Ottava, Brüssel konvensiyalarını dildə təşviq edən BMT məhz Ermənistanın dövlət səviyyəsində işğal və təcavüzkar siyasəti nəticəsində Azərbaycanın dünyanın mina ilə ən çox çirklənən bölgəyə çevrilməsindən danışmır.

Deputat bildirib ki, saxtakar şəkildə "təhlükəsizlik və insan haqları" iddialarını utanmadan dünyanın ən ali masasına daşıyanlar son üç ildə 300-dən çox mina qurbanımızı görmək istəmir: "Etnik separatizm və terroru açıq formada müdafiə edən Avropa İttifaqı, Fransa və Almaniya 8 vətəndaşımızın məhz bu terrorçuların mina terrorunun qurbanına çevrilməsi barədə bir kəlmə də danışmır. Amma faşizmin beşiyi olmuş Almaniya və Afrikada, Asiyada soyqırımları törətmiş əliqanlı kolonist Fransa və radikal "xristian klubu" olan Avropa İttifaqı Azərbaycana haqq və hüquqdan "dərs keçmək" niyyətinə düşüblər. Təbii ki, Azərbaycan Prezidenti tarixi gözəl bilir, eyni zamanda hər kəsə yerini göstərməyi də bacarır. Ən azı son üç ildə mənfur Fransa-Almaniya-Avropa İttifaqı üçlüyü bunu əyani olaraq görüb".

B.Məhərrəmov qeyd edib ki, BMT Təhlükəsizlik Şurasında Qarabağla bağlı müzakirələr beynəlxalq hüquq adına utanc idi. İclasda xüsusi fəallıq edən subyektlər, əslində, separatizmin kölgəsində, yeni geosiyasi situasiyada Cənubi Qafqazda təzyiq mühiti yaratmağa, öz maraqlarının təmin edilməsinə çalışırlar ki, bu da ilk növbədə elə təşəbbüskarların özləri üçün qəbuledilməz presedentlərə yol açacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Separatçıların bütün planları darmadağın edildi

### Onlar silah-sursatlarını təhvil verirlər

**Dövlətimiz 2023-cü il sentyabrın 19-da Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirləri həyata keçirməklə bölgəmizdə yeni dövrün əsaslı başlanğıcını qoydu. İlk növbədə Azərbaycan özünün ərazi bütövlüyü üzərində suverenliyini tam bərpa etdi. Azərbaycan 23 saat 43 dəqiqəlik zəruri antiterror tədbiri həyata keçirməklə 35 illik bir münaqişəyə əbədi olaraq son qoydu. Yalnız öz ərazilərimizdə deyil, bütövlükdə Cənubi Qafqazda böyük bir gərginlik ocağını söndürdü. İllərdir Ermənistanda və Qarabağda olan kriminal xunta rejiminin, müharibə cinayətkarlarının əsarətdə saxladığı Qarabağda yaşayan erməni əhalisi nəhayət ki, rahat nəfəs ala biləcək.**



Uzun illərin münaqişəsindən sonra zorən müharibəyə cəlb olunmuş mülki əhali anladı ki, bu vəziyyət insanlara ölüm, göz yaşı və bədbəxtlik gətirir. Onları bu faciəli münaqişəyə özlərinə "lider" etdikləri separatçılar, cinayətkarlar, insan qanına susamış cəlladlar cəlb edib.

Artıq Yevlaxda keçirilən görüşdə əldə olunan razılaşmalar nəticələrini göstərməkdədir. Sentyabrın 22-də Azərbaycan mərkəzi hakimiyyəti Ağdam-Xankəndi yolu ilə Xankəndidə yaşayan vətəndaşlarımızın zəruri ehtiyaclarını nəzərə alaraq, iki yük maşını ərzaq və digər mallar göndərdi. Qarabağdan gələn xəbərlər də ümidvericidir. Artıq oradakı qanunsuz fəaliyyət göstərən silahlı erməni birləşmələri silah-sursatlarını təhvil verirlər. Artıq 800-dən çox atıcı silah, qumbaraatan, minaatan, ATGM və MANPADS tipli silahların təhvil alındığı bildirilir. Sözsüz ki, prosesin bu cür davamı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına mühüm təsir göstərəcək. Söhbət danışıqlar mövzusu olan sülh müqaviləsinin imzalanmasından gedir. Qeyri-qanuni erməni hərbi kontingentinin bizim ərazimizdə olması həm iki ölkə arasında danışıqlara, həm də sülh prosesinin davam etdirilməsinə ən ciddi maneə idi. Ermənistan ordusunun qalıqları ölkəmizi tərk edəndən sonra bu, Ermənistanla Azərbaycan arasında səmərəli dialoqa öz müsbət təsirini göstərəcəyi, sülh müqaviləsinin razılaşdırılması və imzalanması üçün də münbit şərait yaradacağı barədə ümidləri artırır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində deyildiyi kimi, "kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır".

Qarabağın Azərbaycanın ərazisi olmasını dəfələrlə Ermənistanın baş naziri Nikol Paşinyan da təsdiqləyib. Dünyanın əksər dövlətləri də beynəlxalq hüquqa əsasən bunun belə olduğunu bilirlər. Azərbaycanın sentyabrın 19-da başladıb cəmi 23 saata yekunlaşdırdığı lokal xarakterli antiterror tədbirlər və əldə olunan uğurlu nəticələr müxtəlif səbəblərdən illərdir "ermənipərəst" mövqe sərgiləyən dövlətləri də "sözsüz" qoydu.

Azərbaycan illərdir regionda sülhün və sabitliyin bərpası, silahlı mübarizəyə cəlb olunmuş insanların rahat yaşamaları üçün nə lazımdırsa edirdi, qarşı tərəfin yaratdığı süni problemi sülh yolu ilə həll etməyə çalışırdı. Cənnət Qarabağı silahsız əraziyə çevirmək üçün ardıcıl fəaliyyət göstərirdi. Dəfələrlə dövlətimizin başçısının dediyi kimi, niyyətimiz Qarabağı gülüstana, cənnətə çevirməkdir. 2020-ci ildə Vətən müharibəsi bitdikdən sonra dövlətimiz məğlub Ermənistana sülh təklif etdi. Xatırladaq ki, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın əsas şərtlərindən biri də Ermənistan ordusunun qalıqlarının ərazilərimizdən çıxarılması idi. Nə qədər ki, silah var, qanunsuz silahlılar da var idi, o qədər də müharibə təhlükəsi labüd idi. Hər gün açılan atəşlər, törədilən terror hadisələri, günahsız tökülən qanlar, nəhayət, dövlətimizi ciddi tədbirlər görmək məcburiyyətində qoydu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan sentyabrın 20-də xalqa müraciətində dediyi kimi: "Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır".

Müharibənin birdəfəlik bitməsi, silahların susdurularaq ərazilərimizdə sülhün bərqərar olması bütün vətəndaşların, o cümlədən illərdir separatçıların əsiri olmuş Qarabağda yaşayan ermənəsilli vətəndaşlarımızın da ürəyincədir. Bundan sonra Azərbaycan dövləti onların hüquqlarını təmin edib azad yaşamaları üçün bütün şəraiti yaradacaq. Azərbaycan azad cəmiyyətdir, çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Dövlət başçısının dediyi kimi, bu, bizim böyük sərvətimizdir.

Arzumuz, istəyimiz, məqsədimiz bütün dünyaya bəllidir: ərazilərimizdə sülhün və qanunçuluğun bərpası, dövlətimizin ali qanunlarına hörmət və beynəlxalq hüququn qaydalarına əməl etmək. Biz bütün dövlətlərin beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünü tanıyırıq və ona hörmət edirik. Bizə qarşı münasibətdə də bunu gözləyirik. İnanmaq və əmin olmaq istəyirik ki, Ermənistanda olan revanşist qüvvələr bədnam fikirlərindən əl çəkib bölgədə, Cənubi Qafqazda sülhün və sabitliyin yaranmasına bundan sonra əngəl olmayacaqlar.

*Elşən QƏNİYEV ,*
*"Azərbaycan"*

## *Ombudsman:* "Azərbaycan Qarabağın erməni sakinlərinin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir"

"Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında yaşayan ermənəsilli sakinlərin nümayəndələrinin təmaslar üzrə məsul şəxslə Yevlax şəhərində keçirilən görüşünü təqdirəlayiq hesab edirik. Multikultural və tolerant dövlət olan Azərbaycan milliyyətindən, dinindən, dilindən, irqindən və digər mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşının, o cümlədən Qarabağda yaşayan ermənəsilli vətəndaşlarının beynəlxalq sənədlərdə və milli qanunvericilikdə təsbit olunmuş hüquq və azadlıqlarının müdafiəsinə təminat verməklə yanaşı, bu hüquq və azadlıqların inkişafına xüsusi diqqət yetirir".

AZƏRTAC xəbər verir ki, bu barədə Qarabağda yaşayan ermənəsilli sakinlərin təmaslar üzrə məsul şəxslə Yevlax şəhərində keçirilən görüşünə dair ombudsman Səbinə Əliyevanın açıqlamasında deyilib.

"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili olaraq, bu kimi təmasların, nəhayət, bölgəmizdə sülhün təmin olunmasına və inkişafa, Qarabağ iqtisadi zonasında yaşayan ermənəsilli vətəndaşlarımızın hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə mühüm töhfə verəcəyinə inanır, gələcəkdə birgə yaşayış üçün münbit şəraitin yaradılması baxımından yüksək qiymətləndirirəm", - deyə açıqlamada bildirilib.

## *Azərbaycanın Rus İcması:* "Cənubi Qafqazda sülhün, inkişaf və tərəqqinin vaxtı gəlib çatıb"

"Azərbaycanın Rus İcması ölkə rəhbərliyinin Qarabağın erməni əhalisinin tezliklə çoxmillətli Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində səylərini tam dəstəkləyir. Qarabağda antiterror tədbirləri və sentyabrın 21-də Yevlax şəhərində keçirilən Azərbaycan Prezidentinin nümayəndələri və Qarabağın ermənəsilli sakinlərinin təmsilçiləri arasında görüş çoxillik münaqişəyə son qoydu. Artıq növbəti gün Qarabağın erməni sakinlərinin nümayəndələrinin sosial-humanitar məsələlərin müzakirəsi kontekstində etdikləri xahişə əsasən, Ağdam-Xanəndi yolu ilə müxtəlif qida məhsulları və gigiyena vasitələri olan iki yük maşını, habelə çörəklə dolu iki avtomobil yola salınıb".

AZƏRTAC xəbər verir ki bu barədə Azərbaycanın Rus İcmasının Respublika Şurasının bəyanatında bildirilir.

Bəyanatda vurğulanır: "Biz, Azərbaycanın rus əhalisi əminik ki, Qarabağ bölgəsi ermənilərinin sosial-iqtisadi reinteqrasiyası planı respublika Konstitusiyasında təsbit olunmuş bütün hüquq və normalara tam şəkildə uyğundur. Azərbaycan ənənəvi çoxmillətli, çoxmədəniyyətli ölkədir və burada çoxlu etnik qruplar sülh və anlaşma şəraitində yaşayırlar. Tariximizin bütün dövrlərində milli və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdə məskunlaşmış bütün xalqlar arasında sülh şəraiti hökm sürüb. Bütün Cənubi Qafqazda sülhün, inkişaf və tərəqqinin vaxtı gəlib çatıb".

Rus İcmasının bəyanatında qeyd edilib ki, rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında döyüş meydanında əsl qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirib və Qarabağın erməni əhalisini uzun illər boyu hakimiyyəti zorla əlində saxlayan hərbi xuntanın cinayətkarlarından xilas edib. Respublika Şurası bəyan edib: "Biz canlarını Vətən uğrunda fəda etmiş qəhrəmanları həmişə xatırlayacağıq. Təəssüf ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Rus İcması həlak olanların ailələrinə başsağlığı verir və yaralıların tezliklə şəfa tapmasını diləyir. Biz həmçinin regionda sülhün bərqərar olması uğrunda həyatlarını itirən rusiyalı sülhməramlıların ailələrinə başsağlığı verir və səmimi-qəlbdən ümid edirik ki, gələcəkdə sülh əbədi olaraq bərpa ediləcək".

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan etibarlı tərəfdaşdır, ona hər zaman güvənmək olar!

### Ölkəmizin yaratdığı möhkəm enerji əməkdaşlığı platforması beynəlxalq aləmdə belə dəyərləndirilir

**1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" şərəfli salnaməsinin 30-cu ilinə qədəm qoydu. Ötən 29 il ərzində bu möhtəşəm kontrakt Azərbaycanın hərtərəfli inkişafında, dünyanın sayılıb-seçilən ölkələri sırasında özünə yer tutmasında mühüm rol oynadı. Həmçinin bütün dünya gördü ki, ölkəmizdə istənilən müqavilənin şərtləri birmənalı olaraq ciddi qorunur, investisiyalardan şəffaf və səmərəli şəkildə istifadə edilir, bir sözlə, Azərbaycan etibarlı tərəfdaşdır.**



Ölkəmizin qurduğu əməkdaşlıq və tərəfdaşlıq əlaqələri getdikcə genişlənərək və dərinləşərək möhkəm bir platformaya çevrildi. Elə bir platformaya ki, o, yeni qlobal layihələrin gerçəkləşməsinə imkan verdi. Misal olaraq, 2017-ci il sentyabrın 14-də "Yeni əsrin müqaviləsi"nin - Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanmasını xatırlayaq.

Yeni sazişlə bu nəhəng yataqlar blokunun işlənilməsi 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Bu saziş ölkəmiz üçün daha da əlverişli şərtlərlə imzalandı, baxmayaraq ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" də Azərbaycanın maraqlarını tam təmin edirdi. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bütün bunlarla yanaşı, bir vacib məqam da var ki, bu da tərəfdaşların tərkibində dəyişikliyin olmamasıdır. O cümlədən bp layihənin operatoru olaraq qaldı. Bu da Azərbaycanın möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaratdığının bir daha təsdiqidir.

Elə bu günlərdə Prezident İlham Əliyev bp-nin İdarə Heyətinin sədri Helqe Landı qəbul edərkən də Azərbaycanla şirkət arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixinə toxundu. Dövlət başçısı bunu investorlar və investisiya qoyulan ölkə arasında olan əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu əməkdaşlığın qarşılıqlı inam, etimad və fayda əsaslandığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın bu və digər layihələrdə yaratdığı əməkdaşlıq və tərəfdaşlıq platformasının əhəmiyyətini dəfələrlə vurğulayıb. Dövlət başçısı çıxışlarının birində bu barədə belə deyib: "Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə bp şirkətini qeyd etmək istərdim. Çünki bp şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur...Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var".

Ölkəmiz uzun müddətdir beynəlxalq bazarda, ilk növbədə Avropada etibarlı neft təchizatçısı kimi tanınır. Son illər Azərbaycan artıq həm də qaz ixrac edən ölkə kimi rəğbət qazanıb. Nəhəng ixrac infrastrukturu yaradılmasının, Avropanın enerji xəritəsini dəyişən "Cənub qaz dəhlizi"nin reallaşmasının təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır.

Bu gün ölkəmizdən artıq Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliya mavi yanacaq idxal edir. Cari ildən başlayaraq Rumıniya da bizdən qaz alır. Lazımi interkonnektorlar olarsa, ilin sonundan etibarən Macarıstana və Slovakiyaya da qaz təchizatına başlamaq planlaşdırılır.

"Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

Bu sözlər cari il aprelin 25-də Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları ilə SOCAR arasında anlaşma memorandumunun imzalanması zamanı Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciətində səslənib. İmzalanma mərasimində Azərbaycanın özünü əhəmiyyətli və etibarlı enerji tərəfdaşı kimi təsdiq etdiyi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı bütün çıxışlarda vurğulanıb.

Prezident İlham Əliyev tədbirdə məhz tərəfdaşlıq məsələlərinə toxunaraq deyib: "Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki "Cənub qaz dəhlizi" Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi, əminəm yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, "Həmrəylik Halqası" birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq. Mən həmçinin Sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. İyirmi ildən artıqdır ki, biz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşıq".

Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycana hər zaman güvənmək olar! Bu fikirlər son zamanlar bir çox beynəlxalq tədbirdə bütün çıxışlarda qırmızı xətlə keçir. Məsələn, cari ilin fevral ayında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən 9-cu toplantısında Rumıniya Prezidenti Klaus Yohannis bu barədə belə deyib: "Azərbaycan kimi etibarlı tərəfdaşlara doğru götürülmüş bu strateji kurs uzun müddət Rumıniya tərəfindən təşviq edilib. Biz 2009-cu ildən etibarən Rumıniya və Azərbaycan arasında strateji tərəfdaşlığın faydasını bir yerdə gördük. Avropanın enerji suallarına cavablar həmrəyliyi, regional əməkdaşlığı, mənbələrin və nəql yollarının şaxələndirilməsini nəzərdə tutur. Çünki "Cənub qaz dəhlizi" kimi layihələri əhatə edən prinsiplər məhz bunlardan ibarətdir. 2022-ci ildə biz görünməmiş enerji çağırışları ilə üzləşdik. Qazın çatışmaması və ya münasib əlçatan qaz təchizatının olmaması, qiymətlərin dəyişkənliyi və bazarda qeyri-sabitlik baş verdi. Bu çağırışlar kompleks siyasəti və tənzimləyici qaydaları tələb edir. Avropa bazarına Xəzər qazının nəqli barədə Prezident Əliyev tərəfindən Azərbaycan adından şəxsən verilmiş təminatlar bazarlar üçün ən çətin anda çoxdan tələb olunan sabitlik və proqnozlaşdırmanı təmin etdi".

Yeri gəlmişkən, xatırladaq ki, sözügedən tədbirdə Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksəksəviyyəli nümayəndələri iştirak etmişlər. SOCAR, bp, BOTAŞ, "Bulgartransgaz", "Fluxys", "Desfa", "TotalEnergies", "Masdar", Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, eləcə də onlarca digər nüfuzlu şirkət və qurumun burada iştirakı Azərbaycanın necə geniş əməkdaşlıq və tərəfdaşlıq əlaqələri qurduğunun əyani göstəricisi idi.

Hazırda xarici sərmayədarlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə də həvəs və inamla qoşulublar. Keçən ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilən 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub. bp şirkəti ilə Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur.

Beləliklə, əlaqələr "yaşıl enerji" layihələri ilə daha da şaxələnir. Məlum olduğu kimi, keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Serbiya Prezidenti Aleksandır Vuçiçin bu barədə dediyi sözləri xatırlatsaq, ölkəmizin yaratdığı əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin beynəlxalq aləmdə necə yüksək dəyərləndirildiyini şərh etməyə ehtiyac qalmaz:"Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi var. Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və biz Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq".

***Flora SADIQLI, "Azərbaycan"***

## 8 ayda pensiya ödənişlərinə 3,8 milyard manata yaxın vəsait yönəldilib

**Cari ilin 8 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz (523 milyon manat) çox olmaqla 3 milyard 797 milyon manat vəsait yönəldilib.**

Pensiyaların artırılması istiqamətində növbəti addımlar olaraq, cari il fevralın 1-dən minimum pensiya 240 manatdan 280 manata çatdırılıb, keçən il pensiyaçılara verilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyaları tərkibinə daxil edilərək bu artımdan sonra pensiyalar ötən il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun şəkildə 14,7 faiz indeksləşdirilməklə artırılıb.

Bu ilin yanvar-avqust aylarında pensiyaların orta aylıq məbləği 18 faiz artaraq 435, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatıb.

Qeyd olunan dövrdə 21,1 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 92,5 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## "Ağıllı kənd təsərrüfatı" sahəsində əməkdaşlıq çərçivəsində təqdimatlar keçirilib

**Heyvandarlıq Elmi Tədqiqat İnstitutunda Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA), İNPRO, WHYBIZ, ENEY şirkətlərinin nümayəndələri ilə "Koreya-Azərbaycan ağıllı kənd təsərrüfatı sahəsində əməkdaşlıq" mövzusunda sınaq layihəsinin təqdimatı baş tutub.**

Tədbiri giriş sözü ilə açan Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun direktoru Mahir Hacıyev bildirib ki, institut olaraq daim beynəlxalq təşkilatlar, elm müəssisələri ilə əməkdaşlıq edilir və beynəlxalq təcrübənin ölkəmizdə heyvandarlığın inkişafı üzrə tətbiq olunmasında əsaslı addımlar atılır.

Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Qocayev çıxış edərək bildirib ki, Göygöl rayonu ölkəmizdə heyvandarlıq sahəsində önə çıxan rayonlardan biridir. Son illərdə artan göstəricilərlə birlikdə, yeni innovasiyaların tətbiqi heyvandarlığın inkişafında daha da mühüm yer tutacaq.

Daha sonra çıxış edən Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) Bakı nümayəndəliyinin rəhbəri Kyekvon Co qeyd edib ki, Azərbaycanda fəaliyyət göstərdikləri müddətdə Cənubi Koreya hökumətinin dəstəyi ilə şirkət və müəssisələrin qabaqcıl təcrübələrinin Azərbaycanda tətbiq olunmasında KOTRA olduqca maraqlıdır. Bu gün baş tutan sınaq layihəsi gələcəkdə baş tuta biləcək genişmiqyaslı layihələrin təməlini qoyur.

Tədbirdə həmçinin Kənd Təsərrüfatı Nazirliyinin "Heyvandarlığın təşkili və monitorinqi" şöbəsinin müdiri Bayandur Rzayev, Aqrar Xidmətlər Agentliyinin sədr müavini Eldar Həsənov və başqaları müasir dövrdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatının da inkişafında yeni texnologiyaların, innovasiyaların tətbiqinin əhəmiyyətini qeyd ediblər.

Tədbirdə İNPRO, WHYBIZ, ENEY şirkətləri tərəfindən "SmartFarm texnoloji tətbiqinin təqdimatı", "Cloud sistemi" və digər mövzularda təqdimatlar keçirilib.

Sonda Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA), İNPRO, WHYBIZ, ENEY şirkətlərinin nümayəndələri ilə memorandum imzalanıb.

Qeyd edək ki, cari ilin aprel ayından başlayaraq Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) ilə müxtəlif layihələrin həyata keçirilməsi məqsədilə mütəmadi görüşlər keçirilib.

## İKZF-nin xətti ilə 46,9 min ipoteka krediti verilib

### Dövlət xətti ilə kirayə verilən mənzillərin sayı isə 3951-dir

**İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

Bildirilib ki, İKZF-nin xətti ilə indiyədək 46 min 963 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 2 milyard 799 milyon 162 min 925 manatdır.

Fond həmçinin dövlət xətti ilə zəmanət və subsidiyalar verilmiş kreditlərin məbləği haqqında məlumat yayıb. Məlumata görə, zəmanət və subsidiyalar verilmiş kreditin məbləği 377 milyon 754 min manatdır. Kirayəçilərin istifadəsinə 3951 yaşayış sahəsi verilib.

## Milli parklarımız əvəzolunmaz təbiət inciləridir

**Yaşadıgımız dünya, bizi əhatə edən aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Bu dünya, bu aləm təbiət adlanır. Əslində, biz özümüz də təbiətin bir zərrəsiyik, onun tərkib hissəsiyik. Təbiət bizim hamımızın anasıdır.**

11 iqlim qurşağının 9 tipinin mövcud olduğu Azərbaycan təbiəti özünün cazibəsi ilə seçilir. Amma bəzən bu cazibə insan əli ilə məhv ola bilir. Ona görə də dövlət təbiətin qorunmasına xüsusi diqqət yetirir, mühafizə rejimi ilə onu nəzarətdə saxlayır. Ekoloji vəziyyətin tənzimlənməsi üçün qəbul olunan qanunlar qoruqları və parkları məhv olmaq təhlükəsindən xilas edir. Azərbaycanda 10 milli park, 11 dövlət təbiət qoruğu, 2 qeydiyyatda olmayan qoruq, 24 dövlət təbiət yasaqlığı, yaşı 100-dən yuxarı 2083 ağac, 37 geoloji və paleontoloji obyekt, 15 min hektar endemik və qiymətli meşə növü sahələri var. Xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 594939,1 hektardır və bu, ölkə ərazisinin 7 faizini təşkil edir.

Biz bu yazıda Azərbaycanın milli parklarından söz açacaq, özündə estetik, ekoloji və tarixi əhəmiyyətli nəsnələri birləşdirən ərazilərin faydasını qeyd etməyə çalışacağıq. Ölkədə ilk milli park Ulu Öndər Heydər Əliyevin 2003-cü il 16 iyun tarixli sərəncamı ilə 12131 hektar sahədə yaradılan Ordubad Milli Parkıdır. Akademik Həsən Əliyevin təşəbbüsü ilə yaradıldığı üçün parka onun adı verilib. Bir neçə il sonra 2009-cu ilin noyabrında Prezident İlham Əliyevin sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42797,4 hektara çatdırılıb. Üstəlik də Milli Parkın adı dəyişdirilərək akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb.

Cəmi 9 ilə yaradılan Zəngəzur, Ağgöl, Şirvan, Hirkan, Altıağac, Abşeron, Şahdağ, Qızılağac, Göygöl və Samur-Yalama milli parkları 310136, 5 hektarlıq ərazini əhatə etməklə, ölkə ərazisinin 3,58 faizini təşkil edir. Ətraf mühitin qorunması məqsədi ilə yaradılan milli parklar bənzərsiz təbii mənzərəsi, fərqli iqlimi, təmiz havası və suyu ilə seçilir. Bu yerlərdə ətraf mühitin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması, elmi-tədqiqat işlərinin aparılmasını da həyata keçirmək olar. Milli park dövlətin ən qiymətli ekoloji, tarixi və mədəni obyekti olduğu üçün burada heyvanları ovlamaq, meyvə toplamaq qadağandır. Flora və faunanın inkişafı üçün hər cür şərait yaradılmış milli parkların ətrafında mühafizə olunan təbiət zonası yaradılır.

Turizm və gəzinti üçün milli parkları ziyarət etmək insana olduqca zövq verir. Turistlərin milli parklara səfərləri insanla təbiət arasında vəhdət yaradır. Odur ki, Azərbaycanda bu istiqamətdə ardıcıl maarifləndirmə işi aparılır, internetdə ana təbiətin foto və videoları paylaşılır. Sosial şəbəkələr üzərindən aparılan bu cür paylaşımlar ekoturizmin ən yaxşı təbliğidir. Çünki milli parklarımız əvəzolunmaz təbiət inciləridir, gözoxşayan gözəlliklərdir. İstər xarici qonaqlar, istərsə də yerli turistlər bu gözəllikləri həvəslə ziyarət edərək həm füsunkarlıqdan zövq alır, həm də təbiətlə birbaşa təmas qurmuş olurlar ki, bu da ekoturistlərin sayının artmasını təmin edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən xəbərə görə, bu ilin 8 ayında milli parklara minlərlə turist səfər edib. Əsasən ilk üçlükdə yer alan Göygöl, Abşeron və Şahdağ milli parklarına səfər edən turistlərin ümumilikdə sayı 219 min nəfər olmuşdur. Nazirliyin məlumatında daha sonra bildirilir: "Parklara gələnlərin əksəriyyəti yerli turistlər olsa da, ziyarətçilər arasında çoxlu sayda xarici vətəndaşlar da olub. Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng landşaft komplekslərini əhatə edir. Yay mövsümünün bitməsinə baxmayaraq, qarşıda bizi qızılı-sarı payız mövsümü gözləyir. Bu fəsildə hər kəs müxtəlif bölgələrimizi əhatə edən, əsrarəngiz təbiəti ilə heyrətləndirən milli parklarımıza səfər edə, həftəsonlarını, istirahət günlərini təbiət qoynunda keçirə bilərlər".



Artıq qızılı payızın "ayaq səsləri" eşidilməyə başlayıb. Səyahət etməyi sevən insanlar payız sevgisindən dolayı birgünlük, ikigünlük turlara çıxırlar. Onlar getdikləri yerlərdə həm də milli parkları gəzir, təbiət gözəlliklərini yaddaşlarına hopdurub geriyə xoş təəssüratlarla dönürlər. Bir neçə günlük səyahətin xoş aurasına hopan payız sevinci həm fiziki, həm də mənəvi baxımdan sağlamlıqdır. Tibb də təsdiq edir ki, səyahətlər xoşbəxtlik hormonlarını yüksəldir, ruh halına müsbət təsir göstərir, stresi azaldır, düşüncəni aydınlaşdırır, beyin fəaliyyətini yaxşılaşdırır, əsəbləri sakitləşdirir. Ana təbiətin bir parçası olan insanın bu emosiyaları xüsusilə Azərbaycandakı milli parkları gəzərkən birə beş artır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Maarif işığı

**2023-cü il sentyabrın 21-də Azərbaycan Respublikasının Əməkdar müəllimi Ələkbər Nuru oğlu Quliyevin anadan olmasının 75-ci ildönümüdür.**

Ələkbər Quliyev 1948-ci ildə Babək rayonunun Qaraçuq kəndində (hal-hazırda Naxçıvan şəhərinin inzibati ərazisinə daxildir) dünyaya göz açmışdır. Tam orta təhsilini öz doğma kəndində yerləşən məktəbdə alan Ə.Quliyev 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) Filologiya fakültəsini bitirmiş, həmin ildən Babək rayon Cavidabad (Qaraçuq) kəndində müəllim kimi əmək fəaliyyətinə başlamış, qısa müddətdə özünü əsl pedaqoq və təhsil təşkilatçısı kimi təsdiq edərək, direktor vəzifəsinə yüksəlmiş və 1981-ci ilədək bu vəzifədə işləmişdir. Ələkbər müəllim 1983-cü ildən pedaqoji fəaliyyətini Naxçıvan şəhər 11 saylı orta məktəbdə müəllim kimi davam etdirməyə başlamış, burada da fəallığı ilə seçilərək az müddət sonra təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə irəli çəkilmiş, 1989-1996-cı illərdə isə həmin məktəbin direktoru vəzifəsində çalışmışdır. Ə.Quliyevin qazandığı zəngin pedaqoji təcrübə, təşkilati-rəhbərlik bacarığı onun bu sahədə ən yüksək zirvəyə ucalmasına gətirib çıxarmış, 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təyin olunmuşdur. Keçid dövrünün səbəb olduğu çətin durğunluq illərindən sonra bu vəzifədə işlədiyi altı il ərzində Ələkbər müəllim Naxçıvanda orta təhsilin inkişafı üçün var qüvvəsi ilə çalışmış, təhsilin problemlərinin həlli istiqamətində yorulmaz fəaliyyət göstərmişdir. Ə.Quliyevin nazir işlədiyi dövrdə müxtəlif ixtisas sahibi olan yüzlərlə gənc müəllim yüksək diqqət və qayğı ilə muxtar respublikada mövcud olan orta məktəblərdə işə qəbul olunmuşlar. İndi artıq 20 ildən çox pedaqoji stajı olan həmin müəllimlərin öz işlərinə böyük məhəbbət və vicdanla yanaşmasında bu böyük maarif xadiminin danılmaz əməyi olmuşdur. Ələkbər müəllim özündən əvvəlki təhsil nazirlərinin maarifçilik xəttinin və muxtar respublika orta təhsilinin daha da inkişaf etdirilməsi üçün əzmlə çalışmış, eyni zamanda öz xələflərinə layiqli irs qoymuşdur.

Dövlətimiz əzmkar maarif xadimi və təhsil təşkilatçısının zəhmətini layiqincə qiymətləndirmiş, Ə.Quliyev 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi 2001-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adlarına layiq görülmüşdür.

Ələkbər müəllimin həyatı kifayət qədər dinamik və zəngin olmuşdur. Belə ki, muxtar respublika ictimaiyyəti onu yalnız bacarıqlı təhsil xadimi kimi yox, eyni zamanda mübariz və sarsılmaz əqidəyə malik ictimai-siyasi fəaliyyəti ilə də tanımışdır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda baş verən ictimai-siyasi proseslərdə Ə.Quliyev yaxından və fəal şəkildə iştirak etmişdir. O, Ulu Öndər Moskvadan Naxçıvana qayıtdıqdan sonra Heydər Əliyevə qarşı ölkədə hakimiyyətdə olan partnomenklatura, daha sonra isə psevdodemokratların haqsız hücumlarına və böhtan kampaniyasına qarşı keçirilən bir çox mitinqlərin fəal iştirakçısı və təşkilatçısı olmuşdur. Xüsusən Yeni Azərbaycan Partiyasının təşəkkül tapması prosesinə fəal şəkildə qoşulan Ələkbər müəllim 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransının iştirakçısı olmuşdur. Onun YAP-ın təşəkkülü və formalaşması prosesində iştirakı bununla məhdudlaşmamış, Yeni Azərbaycan Partiyasının Sədri, Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə partiyanın Naxçıvan Şəhər Təşkilatının yaradılması prosesinə rəhbərliyi üzərinə götürmüş, bu işin öhdəsindən uğurla gəlmişdir.

Qeyd edək ki, bu proses heç də hamar getməmişdir. Həmin dövrdə hakimiyyətdə olan Azərbaycan Xalq Cəbhəsinin həm ölkə, həm də muxtar respublika miqyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə qarşı təxribatları özünün pik nöqtəsinə çatmış, 1992-ci il oktyabrın 24-də Naxçıvanda AXC Naxçıvan şəhər və Ordubad rayon təşkilatlarının rəhbərlərinin və qanunsuz silahlı dəstələrinin iştirakı ilə dövlət çevrilişinə cəhd edilmişdir. Azərbaycan Respublikasının ozamankı daxili işlər naziri İ.Həmidovun başçılığı ilə həyata keçirilən bu dövlət çevrilişi cəhdi Naxçıvan əhalisinin ciddi müqaviməti nəticəsində iflasa uğrasa da, həmin qüvvələr bir tərəfdən Yeni Azərbaycan Partiyasının yaradılması və fəaliyyətinə mane olmağa çalışmış, digər tərəfdən isə muxtar respublikada ictimai-siyasi şəraitin gərginləşməsi istiqamətində fəaliyyət göstərmişlər.

Məhz belə bir şəraitdə Ə.Quliyev YAP Naxçıvan Şəhər Təşkilatının yaradılması işinə rəhbərliyi zamanı AXC Naxçıvan Muxtar Respublika və şəhər orqanlarının rəhbərlərinin başçılığı altında dəfələrlə ciddi fiziki və psixoloji təzyiqlə üzləşmişdir. Hətta bir sıra hallarda həyatına təhlükə yaranması belə Ələkbər müəllimi öz əqidəsindən döndərə bilməmiş, o, qətiyyətlə Ümummilli Lider Heydər Əliyevin ardıcılı kimi öz yoluna davam etmişdir. Beləliklə, 1993-cü il noyabrın 5-də YAP Naxçıvan Şəhər Təşkilatının təsis konfransında Ə.Quliyev yekdilliklə təşkilatın sədri seçilmişdir. O, ömürünün sonunadək - 18 il bu vəzifədə çalışaraq, tutduğu mövqedə YAP-ın inkişafına və fəaliyyətinə öz töhfələrini vermişdir. Bu müddətdə YAP üzvlərinin sayı dəfələrlə artmış, təsis konfransındakı bir neçə yüz nəfərdən 13 min nəfərə çatmışdır. Ə.Quliyev ona etimad edilən siyasi işin öhdəsindən layiqincə gəlmiş, minlərlə insanın Ulu Öndər Heydər Əliyevin ideyaları işığına, Yeni Azərbaycan Partiyasının sıralarına cəlb olunmasında mühüm rol oynamışdır. Məhz bu fəallığın nəticəsi idi ki, o, eyni zamanda 1995-2000-ci illərdə YAP Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini vəzifəsində çalışmış, istər muxtar respublika miqyaslı, istərsə də respublika miqyaslı partiya tədbirlərinin fəal iştirakçısı olmuşdur.

Ə.Quliyevin ictimai-siyasi fəaliyyəti yalnız partiya işi ilə məhdudlaşmamış, o, Naxçıvan MR Ali Məclisinin birinci (1995-1996), ikinci (2002-2005), üçüncü (2005-2010) çağırışlarının deputatı seçilmiş və Ali Məclisin komissiya (komitə) sədri olmuşdur.

Ələkbər Quliyev 2010-cu ilin yanvar ayında ömrünün 62-ci ilində həyatla qəfildən vidalaşsa da, o, bu ömrə zəngin bir həyat salnaməsi sığışdıra bilmişdir. Məhz bunun nəticəsidir ki, bütün muxtar respublika sakinləri, təhsil mühiti, yeni azərbaycançılar Ələkbər müəllimi, onun ictimailəşmiş həyatını, pedaqoji-maarifçi və ictimai-siyasi fəaliyyətini böyük ehtiramla xatırlayırlar. O, hər şeydən əvvəl prinsipial, ciddi, əqidəli, səmimi və ədalətli insan kimi öz müasiri olan nəsillərin yaddaşında müsbət obrazı ilə qalmaqdadır. Həm siyasi əqidəsinə, ideoloji baxışlarına, həm də maarifçilik fəaliyyətinə görə özünün vətənpərvər azərbaycanlı obrazı ilə xüsusi rəğbətlə anılan Ələkbər Nuru oğlu Quliyevin xatirəsi onun əqidə yoldaşlarının və Naxçıvan təhsil ictimaiyyətinin qəlbində daim yaşayacaqdır.

*Elman CƏFƏRLİ,*
*YAP Naxçıvan Şəhər Təşkilatının sədri,*
*Ali Məclisin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Avtomobilsiz bir gün daha təmiz hava, daha sağlam həyat deməkdir

**Hazırda ekoloji təhlükəsizlik qlobal problem olaraq həllini gözləyir. Ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan, o cümlədən sudan qənaətlə istifadə və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri vəzifəyə çevrilib. Demoqrafik artım da bir yandan. Bütün bunlar insanların təsərrüfat fəaliyyəti və yaşam tərzi ilə birbaşa bağlıdır.**



Məlumdur ki, atmosferin çirklənməsi, xüsusən də təsərrüfat yolu ilə çirkləndirilməsi həm də daxiliyanma mühərrikli nəqliyyat vasitələrinin sayının artmasının nəticəsidir. Belə nəqliyyat vasitələrindən hər gün atmosferə külli miqdarda zəhərli qazlar atılır, ətraf mühitə yüksək texnogen təsir göstərilir və insanların sağlamlığı üçün ciddi təhlükə yaranır. Fakt olaraq qeyd edək ki, bu gün havanın çirklənməsində daxiliyanma mühərrikli avtonəqliyyat vasitələrinin payı 80 faizdir.

Digər fakt: məlumdur ki, havanın çirklənməsində ən təhlükəli qaz tüstü, duman və toz qarışığı olan smoqdur. İngiliscə "smoke" tüstü, "foq" duman sözlərinin birləşməsindən yaranıb. Mütəxəssislərin rəyinə görə, smoqun tərkibində olan ən zəhərli qaz avtomobillərin buraxdığı dəm qazı hesab olunur. Smoq zamanı havada zərərli maddələrin şiddətli konsentrasiyası yaranır ki, bu da bəzən ölümlə nəticələnir.

Təəssüf ki, avtomobillərin atmosferə atdığı zərərli qaz təkcə smoq deyil, onların sayı onlarladır. Odur ki, ekoloji təhlükəsizliyin qlobal problemə çevrildiyi indiki zamanda onun zərərlərinin aradan qaldırılması üçün beynəlxalq miqyasda müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də "Ümumdünya Avtomobilsiz Günü"dür. Hər il sentyabrın 22-də qeyd olunan həmin günün əsası 1998-ci ildə Fransada qoyulub. O zaman bu günü dünyada bir neçə ölkə qeyd edirdi. 2001-ci ildən sonra isə həmin təşəbbüsə dünyanın 35 ölkəsi qoşuldu.

Bəs 22 sentyabr digər günlərdən nə ilə fərqlənir? Əvvəla, "avtomobilsiz bir gün"də yanacaqla işləyən ictimai nəqliyyatın hərəkəti məhdudlaşdırılır, velosipeddən, diyircəkli konkidən istifadəyə üstünlük verilir, piyada gəzmək, yürüşə çıxmaq, lazım gələrsə qayığa, yaxud da gəmiyə minmək, metro ilə getmək önə çəkilir. Tramvay və trolleybusu olan şəhərlərin əhalisi həmin gün avtomobilini park yerindən çıxarmır. Bu yerdə ürək ağrısı ilə qeyd edək ki, trolleybus və tramvay bir vaxtlar Bakıda da mövcud idi. Hansı səbəbdənsə onları şəhərdən yığışdırdılar. Avtomobillərin yaratdığı problemlərdən dolayı bu gün iri şəhərlərimizdə hər iki nəqliyyat vasitəsinə böyük ehtiyac var.

Dünyada avtomobildən istifadə etməyən şəhər 118 çayın üzərində yerləşən Venetsiyadır. Bu şəhərin 70 min əhalisi var və onlar avtomobilə heç bir ehtiyac duymurlar. Burada əsas nəqliyyat vasitəsi qayıqlardır. Yunanıstanın Hidra adasında isə cəmi 3 min nəfər yaşayır. Hidrada yalnız zibildaşıyan maşınların hərəkətinə icazə verilir. İnsanlar uzaq məsafəyə getmək üçün at və su taksilərindən istifadə edirlər. Əksəriyyət isə piyada gəzir.

Gəlin biz də heç olmasa ildə bir gün avtomobil asılılığından xilas olaq. Bununla təbiətin gözəlliyinə, atmosferin təmizliyinə az da olsa töhvə vermiş olarıq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Dünya olduğu kimi

# Yupiterin peykində həyat ehtimalı

**"James Webb" kosmik teleskopu yalnız kosmosun dərinliklərini araşdırmaq üçün nəzərdə tutulmayıb. O həmçinin Günəş sistemindəki obyektləri də rahatlıqla müşahidə edə bilir.**



Bu imkandan yararlanan tədqiqatçılar Yupiterin peyki "Avropa"nı müşahidə ediblər. Onun buzlaqlardan ibarət səthinin alt hissəsində nəhəng okean yerləşir. "James Webb" peykdə karbon qazının mövcudluğu və əgər varsa, onun mənbəyini aydınlaşdırmağa çalışıb.

"Avropa"nın "James Webb"də olan "NIRCam" adlı yaxın infraqırmızı diapazon kamera və "NIRSpec" adlı spektrometri donmuş şəkildə olan karbon qazının yığıldığı yerləri aşkar etməyə kömək edib. Aparılan təhlillər sayəsində məlum olub ki, buz şəklində olan karbon qazı peykin əsasən iki sahəsində - "Tara" və "Povis"də yığılıb. Bu sahələr müəyyən səth strukturuna sahib olmayan, xaos kimi tanınan relyef növünə aiddir.

Müxtəlif strukturlara sahib olan "Tara" və "Povis" kimi ərazilər səthin alt hissəsində yerləşən okeanın bu və ya digər üsul vasitəsilə xarici mühitlə təmasa girdiyi yerlərdə yaranırlar. Alimlər belə qənaətə gəliblər ki, "Avropa"da karbonun mənbəyi məhz səthin alt hissəsində yerləşən okeandır. Okeanda karbon qazı ya orqanik birləşmələrin parçalanması, ya da digər kimyəvi proseslər nəticəsində yaranmış ola bilər. Hər halda bu, nə vaxtsa "Avropa"dakı okeanda bioloji həyat növünün aşkarlanması şansını qat-qat yüksəldir.

# Yeni nəsil sualtı platforma

**"BAE Systems" şirkəti Böyük Britaniya üçün istehsal olunan və "Herne" adlanan Ekstra Böyük Avtonom Sualtı Platformanın önümüzdəki aylarda bazara çıxarılması üçün işlərin son mərhələdə olduğunu bildirib.**



Dənizaltı təhlükəsizliyin strateji əhəmiyyəti baxımından "Herne" kimi avtonom platforma çox qiymətli sayılır. Platformanın ilk dəfə 2024-cü ilin ikinci yarısında Britaniyanın cənub sahillərində suya buraxılması nəzərdə tutulub.

Belə platformalar hərbi qulluqçulara böyük sualtı əraziləri izləmək imkanı, daha qənaətcil kəşfiyyat və zərbə qabiliyyəti təklif edir. Şirkət "Herne"ni müxtəlif əməliyyatlara, o cümlədən sualtı qayıqlara qarşı kəşfiyyat, müşahidə, aşkarlama və radioelektron müharibəyə uyğunlaşdırıla bilən çevik platforma kimi təsvir edir.

# Ekzoplanetdə həyat

**"James Webb" kosmik teleskopu "K2-18 b" ekzoplaneti barədə yeni məlumatlar əldə edib. O, "K2-18" adlı qırmızı cırtdan (kiçik və nisbətən soyuq ulduz növü) ətrafında dövr edir və Yer kürəsindən 111 işıq ili uzaqlığında Şir bürcündə yerləşir. Kosmik teleskop vasitəsilə əldə edilmiş yeni məlumatlara əsasən, bu ekzoplanetin atmosferində hidrogen mövcuddur. Hidrogenin və digər faktorların mövcudluğu bu ekzoplanetdə canlı orqanizmlərin ola biləcəyinə işarə edir.**



Kembric Universitetinin alimləri "K2-18 b" haqqında daha çox məlumat əldə etmək üçün "James Webb" tərəfindən yığılmış məlumatları analiz ediblər. Yer kürəsindən 8.6 dəfə böyük olan ekzoplanet öz ulduzu ətrafında tam dövrü 33 günə reallaşdırır. Aparılmış müşahidələr çərçivəsində təyin edilib ki, "K2-18 b"nin atmosferində çoxlu miqdarda karbon, metan və dimetilsulfid mövcuddur. Karbon tərkibli molekullara sahib bu kimyəvi birləşmələr Yer kürəsində canlı orqanizmlərin fəaliyyətləri nəticəsində formalaşırlar.

Bundan əlavə, ekzoplanetin atmosferində yetərli miqdarda ammonyakın olmadığı təyin edilib. Bu isə planetin maye şəklində okeana sahib ola biləcəyinə işarə edir. Belə ki, bu halda atmosferdəki ammonyak sadəcə olaraq okeanda buxarlanır.

Alimlər "K2-18 b"də potensial həyat növünün ola biləcəyinə dair sübutları hələ 2019-cu ildə "Hubble" kosmik teleskopu vasitəsilə aşkar etmişdilər. Sözügedən ekzoplanetin atmosferində su buxarının olması öz növbəsində planetin səthində maye şəklində suyun mövcud olmasından xəbər verir. Bu isə həyat növünün formalaşması üçün vacib olan faktorlardan biridir. Digər tərəfdən isə onun ulduzu olan "K2-18" ekzoplanetə öz şüalanması vasitəsilə təsir göstərir. Bu, potensial canlı orqanizmlər üçün heç də müsbət hal deyil. Alimlər sözügedən ekzoplaneti müşahidə etməyə davam edəcəklər.

# Yerə yaxın qara dəliklər kəşf edilib

**Qara dəliklər, xüsusən kiçik ölçüdə olanları kəşf edilən vaxtdan kainatın ən sirli kosmik obyektləri hesab olunurlar. Daha əvvəllər onları müşahidə etmək çox çətin idi.**

Lakin 2015-ci ildə qravitasiya dalğalarının mövcud olduqları sübuta yetdikdən sonra kiçikölçülü qara dəliklərin müşahidəsi bir qədər sadə prosesə çevrildi. Həmin vaxtdan alimlər dəfələrlə ulduz kütləli iki qara dəliyin toqquşması prosesini müşahidə edə biliblər. İndi isə onlar Günəş sisteminə yaxın olan açıq ulduz qruplaşmasında bu cür kosmik obyektləri aşkar ediblər.



Bu obyektlər Buğa bürcündə yerləşən eyniadlı açıq ulduz qruplaşmasında yerləşirlər. Onlar İtaliyanın Padua Universitetinin, İspaniyanın Barselona Universitetinin və Kataloniya Kosmik Tədqiqatlar İnstitutunun mütəxəssisləri tərəfindən aşkar edilib. Bu universitetlərin mütəxəssisləri Günəş sistemindən 150 işıq ili uzaqlığında yerləşən Buğa adlı açıq ulduz qruplaşmasındakı bütün ulduzların hərəkətlərini və təkamüllərini müşahidə etmək üçün kompüter modelləşdirməsi yaradıblar.

# Yaponiyada uzunömürlülərin sayı 92 mini ötüb



**Yaponiyada yaşı 100-dən çox olan uzunömürlülərin sayı ilk dəfə 92 mini ötüb. Hazırda ölkədə yaşı 100-dən çox olan 92 min 139 vətəndaş yaşayır. Bu il onların sayı 1500 nəfər artıb. Yaponiyada 47 min 107 nəfər 100 illik yubileyini qeyd edəcək.**

Xatırladaq ki, 1963-cü ildə Yaponiyada yaşlı sakinlərin sosial təminatı haqqında qanun qəbul edilib. O zaman ölkədə yaşı 100-dən çox olanların sayı 153 nəfər olub. 1981-ci ildə onların sayı min nəfərə, 1998-ci ildə 10 minə, 2012-ci ildə isə 50 minə çatıb.

Başqa ölkələrdə olduğu kimi, Yaponiyada da qadınlar kişilərdən uzunömürlüdürlər. Burada qadınlar üçün orta ömür 87, kişilər üçün isə 81 yaşdan çoxdur. 116 yaşlı Fusa Tasumi Yaponiyanın ən yaşlı vətəndaşıdır. O, 1907-ci il aprelin 25-də anadan olub. Qohumları bildiriblər ki, F.Tasuminin uzunömürlülüyünün sirri düzgün qidalanmağındadır.

Sentyabrın 18-i Yaponiyada yaşlı vətəndaşlara Təşəkkür Günü kimi qeyd edilir.

# Çayların temperaturu artır

**ABŞ-nin Pensilvaniya Universitetinin mütəxəssisləri tərəfindən aparılmış yeni tədqiqata əsasən, çayların temperaturu daha sürətlə artır. Nəticədə onlar okeanlardan fərqli olaraq, oksigeni daha tez itirirlər. Araşdırmanın nəticələri "Nature Climate Change" jurnalında dərc edilib.**



Verilmiş proqnozlara əsasən, növbəti 70 il ərzində çay sistemləri aşağı səviyyəli oksigen problemi ilə qarşılaşacaqlar. Bu isə öz növbəsində bəzi balıq növləri və bitkilərin məhv olmasına səbəb olacaq. Yeni tədqiqat göstərir ki, son 40 il ərzində 800-ə yaxın çayın 87 faizində temperatur yüksəkliyi, 70 faizində isə aşağı oksigen miqdarı müşahidə edilir.

Təhlillərin aparılması üçün mütəxəssislər böyükhəcmli məlumatlar əsasında kompüter modelləşdirməsini təlimatlandırıblar. Təlimatlandırma prosesində istifadə edilmiş məlumatlar arasında illik yağış miqdarından tutmuş torpaq növü və Günəş enerjisi miqdarına kimi informasiyalar olub. Onlar ABŞ-nin 500, Mərkəzi Avropanın isə 216 çayını əhatə edib.

# Afroditanın məbədi tapılıb

**Misir sahillərində qədim yunan mifologiyasına görə, məhəbbət və gözəllik ilahəsi olan Afroditanın batmış məbədi aşkar edilib. Ölkənin Turizm və Qədim Əsərlər Nazirliyinin verdiyi xəbərə görə, Misir və Fransadan olan arxeoloqlar qrupu İsgəndəriyyə yaxınlığında suyun altında qalan məbədi tapıblar.**

Eramızdan əvvəl V əsrə aid olan məbəd Əbu Kir körfəzində batmış qədim Heraklion şəhərində sualtı qazıntılar zamanı aşkar edilib. Məbədin içərisində Yunanıstandan gətirilmiş tunc və keramika əşyalar da tapılıb. Onun xarabalıqları 45 metrə qədər dərinlikdə yerləşir.

Qeyd etmək lazımdır ki, e.ə. VII əsrdə inşa edilən Heraklion e.ə. 331-ci ildə İsgəndəriyyə tikilənə qədər Qədim Misirin ən böyük ticarət mərkəzi və limanı olub. Şəhər təxminən 1200 il əvvəl su altında qalıb. Heraklion 2006-cı ildən, yəni arxeoloqlar tərəfindən kəşf edildiyi gündən sualtı muzey hesab edilir.

# Karina ERİTSYAN: "Azərbaycana reinteqrasiya Qarabağ ermənilərinin təhlükəsizliyinin yeganə yoludur"

**Qarabağın erməni sakinlərinin Azərbaycanın hüquqi müstəvisinə reinteqrasiyası onların təhlükəsizliyinin təmin olunmasının yeganə yoludur.**



Bu barədə Trend-ə Qarabağ Erməniləri Hərəkatının üzvü Karina Eritsyan deyib.

"Hələ də "müstəqillik" arzusunda olanlar başa düşməlidir ki, vəziyyət əsaslı şəkildə dəyişib. Azərbaycan və Ermənistan sülh sazişi imzalamaq barədə danışıqlar aparır. Bu kontekstdə Qarabağ ermənilərinin Azərbaycanın hüquqi müstəvisinə reinteqrasiyası onların təhlükəsizliyinin təmin olunmasının yeganə yoludur.

Qarabağ erməniləri başa düşməlidir ki, onların taleyi ABŞ, Fransa, Ermənistan və digərlərindən deyil, onların özlərindən asılıdır. Xarici dövlətlər kömək etməyəcək. Bundansa reinteqrasiya və Azərbaycanda birgə yaşayış məsələsində ciddi yanaşma ortaya qoymaq lazımdır", - deyə o əlavə edib.

Qeyd edək ki, Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri separatçıların təslim olması ilə nəticələnib. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olunub və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırılıb.

Əldə edilən razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş keçirilib. Görüş zamanı erməni tərəfi bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsini istəyib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 206 (9373) 23 SENTYABR 2023-cü il ŞƏNBƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
44 günlük Zəfərə 23 saatlıq əlavə
Dünya Bankı Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinə və şaxələndirilməsinə dəstək verir
Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktorunu qəbul edib
Bu yeni qələbə regionda sülh və sabitliyin bərqərar olunması baxımından mühüm addımdır
Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə
Azərbaycan-Türkiyə: Dostluğun və qardaşlığın rəmzinə çevrilmiş bir millət, iki dövlət
Müxalifətdən Müzəffər Ali Baş Komandana təbrik:
"İlham Əliyevin qətiyyəti sayəsində separatçılar 23 saat ərzində ağ bayraq qaldırdılar"
Avropa İttifaqı, yoxsa səlibçi birlik?!
BMT Azərbaycanla hesablaşdı
Təhlükəsizlik Şurası Qarabağdakı antiterror tədbirlərinə etiraz etmədi
Xankəndiyə çörək Ağdamdan gedir
Ermənisilli sakinlərin ehtiyacları ödənilir
Azərbaycan əsgəri Qarabağın erməni sakinlərini həm də qoruyur
azerbaijan-news.az


# Hayastan polisi aksiyaçılarla qeyri-insani davranır

## Paşinyan güc strukturlarını mükafatlandıracaq







**Hayastanda narazılıq və qarşıdurmanın artması, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin daha da kəskinləşməsi müşahidə olunur. Keçmiş hərbi xunta təmsilçilərinin İrəvanda keçirdiyi etiraz aksiyaları bir neçə gündür ki, davam edir. Hər ötən gün isə aksiyalar istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənir. Hətta vəziyyət o həddə çatıb ki, Paşinyan hökumət binasına gedən zaman etirazçılar binanı ələ keçirmək planları qurmağa başlayıblar.**

Müxalifət tərəfdarları şəhərin bir çox körpü və yollarını betonqarışdıran maşınlarla bağlayıblar. Əraziyə çoxsaylı polis qüvvələri cəlb olunub. Etirazçılar "Nikolsuz Hayastan" şüarı səsləndirirlər. Polislə etirazçılar arasında toqquşma baş verir.

"Hraparak" nəşri yazıb ki, hakim Vətəndaş Müqaviləsi Partiyası nümayişlərin bir neçə günə yatırılacağına şübhə etmir, çünki Nikol Paşinyan daxili işlər naziri Vahe Qazaryana ən sərt vasitələrlə ictimai üsyanları yatırtmaq üçün ciddi göstəriş verib. Müəllif vurğulayıb ki, dünən də, ötən günlərdə də insanlar polisin vəhşiliklərinin şahidi olublar: "Bir neçə gündür ki, hakimiyyətin təhriki ilə Rusiya səfirliyi yaxınlığında aksiyaların keçirilməsi də hökumət mətbuatında dayanmadan işıqlandırılır".

O da qeyd olunur ki, polislərin, xüsusən də qırmızı-qara beretlilərin dinc etirazçılara qarşı göstərdiyi qeyri-insani, heyvani vəhşiliyi görməmək mümkün deyil. Polisin nümayəndələri İrəvanda revanşistlərə qarşı qeyri-insani davranırlar: "Silahsız, dinc etiraz və itaətsizlik aksiyası keçirən erməni xalqına, qadın və qızlara, gənclərə, qocalara qarşı belə vəhşiliyi heç cür əsaslandırmaq olmaz. Yəqin ki, Nikol Paşinyan polislərə ikiqat və ya üçqat bonus vəd edib. Başqa səbəblər də mümkündür".

Vurğulanır ki, müxalifətin başlatdığı etiraz aksiyaları bir aya kimi davam edərsə, bu, Paşinyan üçün ciddi problemlər yarada bilər. Diqqət ona yönəlir ki, məhz baş nazirin son 5 il ərzində hakimiyyəti təkcə Qarabağ müharibəsindəki məğlubiyyətlə bitmir, o, Hayastan üçün həm iqtisadi, həm enerji, həm də nəqliyyat baxımından təhdid vəziyyəti yaradıb. Digər tərəfdən, Hayastandan əhalinin köç prosesi yeni mərhələyə daxil olub. Qeyd edilir ki, vaxtilə Hayastandan əhali ədədi silsilə ilə baş götürüb qaçırdısa, indi artıq həndəsi silsilə ilə ölkəni tərk edirlər.

Bütün bunlara baxmayaraq, görünən odur ki, yaranmış vəziyyətdə Paşinyan hakimiyyətdə yerini daha da möhkəmlətmək üçün bütün addımları atır. Əslində, bu da ölkənin tənəzzülünü sürətləndirir. Bu, Hayastanın durumunu daha da ağırlaşdıracaq. Elə ictimaiyyət də məhz bundan narazıdır. Belə vəziyyətdə ölkədə hakimiyyətlə xalq arasında uçurumun daha da dərinləşməsi gözlənilir. Beləliklə, Hayastan növbəti vətəndaş qarşıdurmasına sürüklənir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Prokurorluq orqanlarında könüllü qanvermə aksiyası keçirilib



Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 105-ci ildönümü ərəfəsində ənənəvi olaraq qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək vermək məqsədilə sentyabrın 22-də Baş Prokurorluğun Mərkəzi Aparatı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, eləcə də rayon, şəhər prokurorluqları və ərazi hərbi prokurorluqlarının əməkdaşlarının iştirakı ilə könüllü qanvermə aksiyası keçirilib.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının birgə təşkilatçılığı ilə reallaşdırılan aksiyada ümumilikdə 192 nəfər prokurorluq əməkdaşı iştirak edib.

# ABŞ senatoru Bob Menendes və arvadı Nadin Arslanyan rüşvətxorluqda ittiham olunurlar

**Amerikalı demokrat senator, Azərbaycanın qatı düşməni, Ermənistanın "Dostluq" ordenini alan və Rusiyanın "qara siyahısı"nın fiqurantı Robert Menendes Misir hakimiyyətinə xidmət müqabilində yüz minlərlə dollar rüşvət almaqda rəsmən ittiham olunur.**





ABŞ Ədliyyə Nazirliyi elan edib ki, 2006-cı ildən Nyu Cersi ştatını Senatda təmsil edən Menendes Misir hakimiyyətinin xeyrinə olan hərəkətlər müqabilində külli məbləğdə rüşvət alıb.

Müstəntiqlər iddia edirlər ki, senator Menendes və erməni arvadı Nadin Arslanyan üç iş adamından rüşvət qismində nağd pul, qızıl külçələr, ev krediti ödənişləri və lüks avtomobil alıblar.

İttiham aktına əsasən, iş adamları Vael Hana, Xose Uribe və Fred Deybs Menendesə senator kimi nüfuzundan istifadə edərək onları qorumaq və həmçinin "Misir Ərəb Respublikasına faydalı işlər görmək" üçün pul ödəyiblər.

ABŞ Ədliyyə Nazirliyi təxminən bir il "Menendes işi" ilə bağlı araşdırma aparıb. Məlumata görə, ötən il senatorun evində axtarış aparılıb və bu zaman zərflərə qoyularaq paltarlarda, şkaflarda və seyfdə gizlədilmiş 480 min dollardan çox nağd pul aşkar edilib. Bundan əlavə, müstəntiqlər evdə 100 min dollar dəyərində qızıl külçələr aşkar ediblər. Müstəntiqlərin dediyinə görə, Xose Uribenin pulunu ödədiyi lüks avtomobil Mercedes-Benz kabrioleti qarajda aşkar edilib. Bütün bu tapıntılar, Ədliyyə Nazirliyinin fikrincə, senator Menendes tərəfindən rüşvətxorluğun sübutudur.

Nyu Yorkun cənub bölgəsinin prokuroru Damian Uilyamsın bildirdiyinə görə, senator rüşvəti arvadının vasitəsilə alıb. Müstəntiqlərin fikrincə, Menendes avtomobili Xose Uribenin yoldaşlarından birini cinayət təqibindən xilas etdiyi üçün alıb.

İttihamnamədə deyilir ki, senatorun həyat yoldaşı Nadin Arslanyan adıçəkilən üç iş adamından biri, əslən misirli Vael Hana ilə birlikdə Menendesi Misir ordusu və kəşfiyyatının nümayəndələri ilə tanış edib.

Vael Hana və Nadin Arslanyan minlərlə mətn mesaj mübadiləsi aparıblar. Nadin daha sonra onları telefonundan silib.

İttihama görə, Nadin Arslanyan və Vael Hana tərəfindən təşkil edilən təmasların məqsədi hərbi tədarüklər və ABŞ-nin hərbi yardımı sahəsində Misirin maraqları üçün senatorun lobbiçilik etməsi olub.

69 yaşlı Bob Menendes səkkiz il əvvəl də rüşvətxorluqda ittiham olunub.

Lakin o vaxt andlılar heyətinin sayəsində onun barəsində həbs cəzası hökmü çıxarılmayıb.

Arvadı erməni olan Bob Menendes Konqresin Ermənistan məsələləri üzrə parlament qrupunun üzvü olub və ötən il bu ölkənin maraqlarını təbliğ etdiyinə görə Ermənistanın "Dostluq" ordeni ilə təltif edilib. Yalnız ordenləmi? Ümid edirik ki, bu suala ABŞ femidası ədalətli araşdırması ilə aydınlıq gətirəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Ukraynalı ekspert: "Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə qəti qələbəsi böyük epoxanın sonu oldu"

**"Ərazi bütövlüyü uğrunda Azərbaycanın qəti qələbəsi, ilk növbədə bütün postsovet məkanı üçün böyük və uzunsürən epoxanın sonu oldu". Bu fikirləri AZƏRTAC-ın müxbiri ilə söhbətində Ukraynanın "Doktrina" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Yaroslav Bojko söyləyib.**



Ekspertin sözlərinə görə, sovet sisteminin süqutu ilə meydana çıxan hər bir separatçı anklav, özü-özlüyündə, onun qopduğu dövlət üçün təhlükə idi. O əlavə edib: "Doxsanıncı illər mahiyyət etibarilə əvvəllər SSRİ-yə daxil olmuş ölkələrin ortaq problemlərlə üzləşdiyi və artıq onların hər biri tərəfindən ayrı-ayrılıqda həll olunan spesifik bir dövr olub. Qarabağ uğrunda mübarizə həmin illərdə Azərbaycan üçün faciəli hadisələrlə dolu səhifə idi. Bununla yanaşı, indi mühüm olan odur ki, 30 ildən sonra Qarabağda yenidən Azərbaycan bayrağı dalğalandı. Azərbaycan cəmiyyətinin və dövlətinin böyük transformasiyası bunu şərtləndirən amil oldu. Bu, cəmiyyətdə ciddi konsolidasiya, iqtisadi inkişaf, praqmatik və şəraitə uyğun dövlət siyasətini ehtiva edir. Bunun sayəsində Azərbaycan separatçılıqla bağlı öz problemini həll edə bildi və postsovet məkanındakı digər dövlətlərə müstəqil yolun tam mümkünlüyü və səylər göstərildiyi təqdirdə uzunmüddətli mübarizədə qələbənin tamamilə real olması barədə açıq siqnal vermiş oldu".

Yaroslav Bojko sonda bildirib: "Cəmiyyətin konsolidasiyası və qurban vermək əzmi olan yerdə qələbə də labüddür. Onilliklər keçməsinə baxmayaraq, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri üzərində nəzarəti tam qaytarmaq üzrə strateji məqsədi heç vaxt zəifləməyib. Bu, vurğulanması lazım olan və başqalarına örnək təşkil edəcək davranışdır".


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifova əzizi

**VAHİD AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5548
Sifariş 2396

Qiyməti 40 qəpik